

# ZƏFƏR YOLU

# THE WAY TO VICTORY

**İradə Əlili, Vüqar Şahinoğlu**

# ZƏFƏR YOLU

**Bakı - 2021**

Ön söz müəllifi: ***Ceyhun Məmmədov***
*Milli Məclisin deputatı,*
*İlahiyyat üzrə fəlsəfə doktoru*

Redaktor: ***Elnarə Dərziyeva***

Məsləhətçi: ***Azadə Novruzova,***
***Ilkanə Yusifova***

Tərçüməçi: ***Xəyalə Qurbanova***

Korrektorlar: ***Səadət Tanrıverdiyeva,***
***Ləman Bağırlı***

Dizayner: ***Leyla Babazadə***

**© İradə Əlili, Vüqar Şahinoğlu .**
Zəfər yolu, -Bakı, Ləman .2021, 148 səh.

*"Zəfər yolu" adlı bu kitap zəfərdən bəhs edir. 30 il torpaq həsrəti ilə yaşayan bütün azərbaycanlılar bu zəfəri, bu sevinci gözləyirdi. Bizim savaş haqq savaşı idi. Ali baş komandanımız, Prezidentimiz İlham Əliyevin apardığı uğurlu siyasət, Azərbaycanın müzəffər ordusunun şücaəti, cəsarəti sayəsində torpaqlarımız işğaldan azad olundu, 44 günlük mücadiləmiz qələbə ilə nəticələndi. Qalibiyyətimizin sevinci bu kitabda tərənnüm olunub.*

ISBN: 978-9952-37-675-3

# Ön söz

Bu gün Azərbaycan dövlət müstəqilliyi tarixinin ən qürurlu və şərəfli günlərindən birini yaşayır. Azərbaycan xalqı 30 ilə yaxın müddətdə səbirsizliklə qələbə gününü gözləyirdi. Bu zəfərlə Azərbaycan xalqı böyüklüyünü bir daha sübut etdi, bölgədə yeni reallıq yaratdı, erməni şovinizminə son qoydu.

30 illik işğal dövrü Azərbaycan xalqı üçün ağrılı və acılı oldu. O bölgədən olduğum və bu duyğuları yaşadığım üçün bu hisslər mənim üçün də doğma və tanışdır. Ancaq bütün məhrumiyyət və çətinliklərə baxmayaraq Azərbaycan xalqı heç zaman ruhdan düşmədi, sınmadı, haqqın-ədalətin öz yerini tapacağına, qələbəyə inamını itirmədi.

Qələbənin təmin olunmasında bir çox amillər xüsusi rol oynadı. Prezident İlham Əliyevin yüksək idarəçiliyi, güclü iradəsi, prinsipial mövqeyi ilə yanaşı, Azərbaycan xalqının birlik və həmrəyliyi bu qələbəni təmin edən əsas amillərdən oldu. Hazırda qarşıda duran mühüm vəzifələrdən biri bu birlik və həmrəyliyi qorumaqdır. Düşməni ən çox qorxudan da bu birlik və həmrəylikdir.

Qeyd etmək lazımdır ki, qələbədə qardaş Türkiyə və Pakistanın siyasi, hərbi və mənəvi dəstəyi də ciddi rol oynadı. Sona kimi hər iki dost və qardaş ölkə Azərbaycan xalqına dəstəyini davam etdirdi. Azərbaycan xalqı onun ağır günündə yanında olan bu xalqların qardaş dəstəyini heç zaman unutmayacaq. Bu əlaqələr tarixdə olduğu kimi hər zaman uğurla inkişaf etdiriləcək, gələcək nəsillərə nümunə olacaq. Bunun üçün daha çox çalışmalı, birlik və həmrəyliyimizi daha da gücləndirməliyik.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan xalqı tarixdə ermənilərin onun başına gətirdiyi müsibət və faciələri heç zaman unutmayacaq. Ancaq Ermənistandan fərqli olaraq biz xalq olaraq gələcəyə baxmağı da bacarmalıyıq.

Bölgənin gələcəyi və inkişafı bilavasitə tez bir zamanda bölgədə sülhün və birgəyaşayışın təmin olunmasından asılıdır.

Hazırda ölkəmiz postmüharibə dövrünü yaşayır. Müharibə bitsə də mübarizəmiz, haqq davamız davam edir. Xalqımız hər zaman ermənilər tərəfindən həyata keçirilən amansız informasiya müharibəsinə hazır olmalı, təxribatların qarşısını vaxtında almalıdır.

Bu gün qarşıda duran mühüm vəzifələrdən biri də Vətən müharibəsində əldə etdiyimiz qələbəni təbliğ etmək və gələcək nəsillərə çatdırmaqdır. Bu mübarizədə xüsusi rola malik vasitələrdən biri də maarifləndirici kitabların, sanballı elmi əsərlərinin və tədqiqat işlərinin ərsəyə gətirilməsidir.

Hesab edirəm ki, müəlliflər tərəfindən ərsəyə gələn bu kitab bu işə öz ciddi töhfəsini verəcək. Bu kimi kitablar nə qədər çox yazılsa bir o qədər Azərbaycan həqiqətlərini dünyada yaya və təbliğ edə bilərik. Bunun üçün daha çox çalışmalıyıq.

Onu da qeyd etmək lazımdır ki, bu kimi materiallar təkcə ana dilimizdə deyil, xarici dillərdə də nəşr edilməlidir. Oxuculara təqdim olunan bu kitabın əhəmiyyətini artıran məsələlərdən biri də onun xarici dillərdə də nəşr edilməsidir. İnanıram ki, kitab Azərbaycan həqiqətlərinin dünyada təbliği işinə öz töhfəsini verəcək. Kitabın ərsəyə gəlməsində rolu olan hər kəsə təşəkkür edir, gələcək fəaliyyətlərində uğurlar arzulayıram.

***Ceyhun Məmmədov***
***Milli Məclisin deputatı,***
***ilahiyyat üzrə fəlsəfə doktoru***

# Redaktordan

1991-ci il. Onda cəmi 11 yaşım vardı. Nə baş verdiyini anlamasam da yaxşı xatırlayıram. Hər kəs səksəkə içərisində idi. Bunu valideynlərimin bizdən gizli, xısın-xısın danışmalarından, narahat simalarından da görmək olurdu. "Ermənilərlə dava başlayıb. Bəlkə, uşaqları kəndə göndərək?", "Yox, hələ biraz gözləyək görək nə olur".. Günlər, aylar keçdikcə gərginlik daha da artırdı. İçimdə ermənilərə qarşı güclü nifrət hissi baş qaldırmışdı. Beynimdəki suallara cavab tapmağa çalışırdım. "Axı biz onlara nə etmişik? Bizdən nə istəyirlər?". Cavab isə yox idi...

Bizim rayonumuz (Tovuz) ermənilərlə sərhəd idi. Gecə-gündüz atışma səslərindən qulaq tutulurdu. Atılan "qrad" tipli raketlər binamızın qarşısından görünən kəndlərə düşürdü. O qulaqbatırıcı, vahiməli vıyıltını və ardınca gələn, yeri-göyü silkələyən, dəhşətli guppultu səsini illər sonra da unuda bilmədim. Azğınlaşmış ermənilər şəhərin mərkəzini, dinc əhalini də topa tuturdular. Müharibə hər kəsin əsas mövzusuna çevrilmişdi. Məktəbdəki sinif yoldaşlarım, müəllimlərimiz hər kəs hər gün qonşuya düşən raketdən, evlərinin pəncərəsinin sınıb tökülməsindən, divarların qəlpədən dəlmə-deşik olmasından danışırdılar: "Bu gün Pakizə xalagilə "qrad" düşdü, darvazaları ikiyə qatlanıb. Qadını xəstəxanaya aparıblar, vəziyyəti ağırdır...."

"Diqqət! Diqqət! Bütün sakinlərin nəzərinə! Zirzəmilərə düşün! Düşərkən özünüzlə lazım olan əşyaları götürməyi unutmayın!". Hər gün atışma başlayanda yerli radiodan gələn bu səsdən aləm bir-birinə dəyirdi. Kimisi yemək, kimisi geyim, qab-qacaq dolu zənbillərini də götürüb zirzəmiyə enirdi. Bəzən günlərlə oradan bayıra çıxa bilmirdik. Son tikəmizi də qonşularımızla bölüşürdük. Evin kişiləri ailələri ərzaqla təmin edirdi. Bir sözlə desək, görmədiyimiz və heç kimə arzulama-

dığımız həyəcan və qorxu dolu günlər yaşayırdıq. 12 yaşlı balaca bir qız uşaqlığını yaşamadan böyüyürdü. Qoxurdumu? Çox qorxurdu... Ürəyinin döyütüsünü qulaqlarında eşidərək böyüyürdü. Hər gecə binanın 4-cü mərtəbəsindən arxa tərəfdəki dağlarda gedən atışmanın od, ölüm saçan qırmızı işıqlarını, silahların, topların ürək əsdirən səslərini eşidərək, görərək, qorxudan gözləri böyüyərək böyüyürdü...

"Xocalını qırıb-çatıblar, uşaq-qoca deməyib, hamısını qətlə yetiriblər, bu murdarlar! Adam qalmayıb. Ayaqyalın, başıaçıq qaçanları güllələyib, öldürüblər. Soyuqdan donanlar da olub". 1992-ci ilin ilk aylarında, fevralın son günlərində ən dəhşətli xəbər Qarabağdan, Xocalıdan gəldi. Hamı gözüyaşlı idi. Mən,12 yaşlı balaca bir qız artıq bu bir ildə sanki 10 yaş böyümüşdüm. Ermənilərin məkrli xislətini, bizimlə torpaq iddiasında olduğunu, işğalçılıq siyasətini davam etdirdiklərini anlayacaq yaşda olmasam da, artıq böyümüşdüm. Məni müharibə böyütmüşdü. Məni zirzəmilərdə yarıac-yarıtox günlərimiz, rayonlarımız işğal olunduqca valideynlərimizin axıtdığı göz yaşları böyütmüşdü. Mən böyümüşdüm. Atılan güllələrin, mərmilərin səsi məni böyütmüşdü.Aparıcı Şəmistan Əlizamanlının rayonun mərkəzinə quraşdırılmış səsucaldanla yayımlanan cəbhə xəbərlərinin sədası ilə böyümüşdüm. Şeir yazmağa başlamışdım. Müharibəyə aid yazdığım ilk şeir isə "Qarabağ bizimdir, bizim olacaq" adlı şeir idi.

"Qarabağ bizimdir, bizim olacaq"
Bizimdir həm Şuşa, həm də ki, Laçın
İstusu, Kəlbəcər bir də ki,Xaçın.

Mən, 12 yaşlı balaca bir qız artıq heç nədən qorxmurdum. Müharibə mənə qorxuları ilə yanaşı qorxmazlığı, cəsarəti də öyrətmişdi... Ürəyimdə isə bir arzum vardı. Daha da böyüyüb mənfur düşməndən qisasımızı almaq, torpaqlarımızı geri qaytarmaq... Düzdür, müharibə dayanmışdı. Atəşkəs elan olunmuşdu. Amma ağrı-acısı, göynərtisi qəlblərdə qalırdı. Müharibədən çıxan bir ölkə olaraq iqtisadi böhran yaşayırdıq. Mən,14

yaşlı yeniyetmə bir qız növbədə durub talonlarla çörək alırdım. Ailədə 6 nəfər idik. Külfətimiz böyük idi. Verilən çörək bizə bəs eləmirdi. Yaxşı xatırlayıram: atamın bir dostu var idi - Novruz baba. Təxminən 60 yaşı olardı. Övladı yox idi. Həyat yoldaşı ilə yaşayırdı. "Bizə bir çörək bəs edir",- deyib digər çörək payını hər gün bizə verərdi. Mənim uşaq yaddaşımda Novruz baba həmişəlik yaxşı insan kimi qaldı. Və bu gün də belədir...

İllər keçdi... Ali məktəbə qəbul oldum. Paytaxta gəldim. Oxudum, işlədim. Jurnalist oldum. Hər dəfə torpaqlarımızın işğal olunduğu tarixdə məcburi köçkünlərdən götürdüyüm müsahibələr əsnasında yenidən uşaqlığımı yaşadım. Bu ağrını-acını bir də hadisələrin canlı şahidlərinin dilindən eşidib, ürək ağrısı, göz yaşları ilə qələmə aldım. Ermənilərə olan kinim, nifrətim bir an belə azalmadı. Əksinə daha da artdı. Məcburi köçkünlər yalnız torpaqlarını itirməmişdilər, onların arasında valideyinlərini, qardaşını, bacısını, bütün nəslini itirənlər də var idi. Erməni vandalizmi qarabağlıların ürək dağlayan, qan donduran həyat hekayələrində daha aydın əks olunurdu...

Və nəhayət, o möhtəşəm gün gəldi! 27 sentyabr 2020-ci il. Erməni silahlı birləşmələrinə qarşı əks-hücumla 2-ci Qarabağ savaşı başladı. Bu savaş haqq savaşı idi. Bu savaş dərddən yara bağlayan qəlblərin savaşı idi. Bu savaş 30 il torpaq həsrəti ilə yaşayan bütün azərbaycanlıların savaşı idi. Ali baş komandanımız, Prezidentimiz cənab İlham Əliyevin apardığı uğurlu siyasəti, Azərbaycanın müzəffər ordusunun şücaəti, cəsarəti sayəsində 44 günlük mücadiləmiz qələbə ilə nəticələndi. Qarabağımız işğaldan azad olundu! Biz qalib gəldik! İllərin yurd həsrətinə son verildi! Biz özümüzə qayıtdıq, biz illərdir həsrətində olduğumuz, Azərbaycanın musiqi beşiyi, mədəniyyət ocağı Şuşaya qayıtdıq! 44 günlük Zəfər savaşı 11 yaşlı uşaqlığımın ağrı-acısını unutdurdu. O balaca,11 yaşlı qızın artıq üzü gülürdü. 41 yaşlı qadının timsalında o da bütün azərbaycanlılar kimi sevinirdi, qürur duyurdu, fəxr edirdi.

Bu günü yasadan Uca Tanrıya şükürlər olsun! Bu haqq yolunda canından keçən igidlərimizə Allahdan rəhmət diləyirəm! Bu 44 günlük savaşda hər zaman Azərbaycanın yanında olan qardaş Türkiyəyə, bu ölkənin başçısı cənab Rəcəb Tayyib Ərdoğana xalqımız adından təşəkkür edirəm! Məhz bu ölkə Azərbaycana göstərdiyi mənəvi dəstəyi ilə sübut etdi ki, biz tək deyilik. Azərbaycanın özündən böyük qardaşı var. Və bu qardaş hər an onun yanındadır, arxasındadır. Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaqda ölkəmizə dəstək olan Türkiyə: "Azərbaycan öz torpaqları uğrunda, haqq yolunda savaşır",-deyə hər kəsə bəyan etdi. Yaşasın Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı! Bu haqq yolunda Azərbaycanın yanında olan digər, Pakistan, İsrail, Ukrayna kimi nəhəng dövlətlərə də təşəkkür düşür. Azərbaycanı düşünən, sevən hər kəsə xalqımız adından minnətdaram!

Bu qələbə bir daha sübut etdi ki, haqq üzülər, amma qırılmaz. Qarabağ Azərbaycanın tarixi torpağıdır. Bu hər zaman belə olub və belə də qalacaq!

Belə bir kitabın ərsəyə gəlməsində mənim də bir redaktor kimi töhfəmin olması qürurvericidir. Bununçün qəlbi vətən, Qarabag sevgisi ilə döyünən, bu nəşrin müəllifi, dəyərli, ziyalı xanım İradə Əliliyə və kitabın ərsəyə gəlməsində köməyi olan hər kəsə təşəkkür edirəm! Var olun!

**Elnarə Dərziyeva, Əməkdar jurnalist, Azərbaycan Jurnalistlər İttifaqının və Beynəlxalq Jurnalistlər Federasiyasının üzvü**

# Giriş

2020-ci ildə Azərbaycan xalqının ürəyində yara bağlamış Qarabağ dərdimiz sevinclə əvəz olundu. Prezidentimiz və Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun şücaəti və xalqımızın birliyi sayəsində möhtəşəm qələbə qazandıq. Ötən il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsi (II Qarabağ Müharibəsi - həmmüəlliflərdən) 2020-ci il noyabrın 8-də Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın tacı olan qədim Şuşanın və digər işğalda olan torpaqlarımızın azad edilməsi ilə nəticələndi. Qələbənin qazanılması xalqımızın tarixində yeni bir parlaq səhifə yazdı. Noyabrın 10-da isə Rusiyanın vasitəçiliyi ilə Ermənistan biabırçı məğlubiyyətə bərabər üçtərəfli bəyannaməni imzaladı. Bununla da 30 ilə yaxın davam edən Qarabağ münaqişəsinə son qoyuldu.

Prezidentimizin bu tarixi qələbənin qazanılmasında nümayiş etdirdiyi qətiyyətli mövqe xalqımıza, o cümlədən hər birimizə böyük sevinc və qürur hissi yaşatdı. Azərbaycan Ordusunun qəhrəman əsgər, çavuş, gizir, zabit və generalların yüksək peşəkarlığı, qibtə olunacaq vətən sevgisi, cəsarəti, şücaəti ilə düşmənin işğal etdiyi torpaqlarımıza yenidən qovuşduq. Müzəffər Ordumuz üçrəngli bayrağımızı Cəbrayıla, Hadrut, Füzuli, Zəngilan, Şuşa, Ağdam, Kəlbəcər və Laçına sancaraq bu rayonları tarixi sahibləri olan Azərbaycan xalqına geri qaytardı. Və bununla da Qarabağın Azərbaycanın əzəli və əbədi torpaqları olduğunu dünyaya sübut etdik.

Azərbaycan Müdafiə Nazirliyinin açıqladığı rəsmi məlumatlara əsasən Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib.

Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonunun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun

Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik azad olunub.

Noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladı. Bəyanatda 2020-ci il dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonlarının Azərbaycana qaytarılması öz əksini tapırdı.

İmzalanan sənədə uyğun olaraq, noyabrın 20-də Ağdam rayonu Azərbaycana təhvil verilir. Bununla da rayonun işğal edilmiş 73% ərazisi, o cümlədən Ağdam şəhəri azad olunur.

Noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana təhvil verilir. Kəlbəcər şəhəri də daxil olmaqla, 147 yaşayış məntəqəsi işğaldan azad edilir.

2020-ci il dekabrın 1-də isə bəyannaməyə əsasən Laçın rayonu Azərbaycana təhvil verilir. Bununla da üçtərəfli razılaşmaya uyğun olaraq Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşır.

## Düşmən işğalından azad olunmuş şəhər, qəsəbə və kəndlərimizin siyahısı:

**27 sentyabr 2020-ci il**

•Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri

•Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri

•Ağdərə və Murovdağ istiqamətlərindəki yüksəkliklər

**3 oktyabr 2020-ci il**

•Tərtər rayonunun Suqovuşan və Talış kəndləri

•Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri

•Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi

**4 oktyabr 2020-ci il**

•Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri

**5 oktyabr 2020-ci il**

•Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri

**9 oktyabr 2020-ci il**

•Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi

•Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri

•Füzuli rayonunun Yuxarı Güzlək, Gorazıllı kəndləri

•Tərtər rayonunun Çaylı kəndi

**14 oktyabr 2020-ci il**

•Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri

•Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri

**15 oktyabr 2020-ci il**

•Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri

•Füzuli rayonunun Arış kəndi

•Cəbrayıl rayonunun Doşulu kəndi

**16 oktyabr 2020-ci il**

•Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri

**17 oktyabr 2020-ci il**

•Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri

**18 oktyabr 2020-ci il**

•Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı

**19 oktyabr 2020-ci il**

•Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqulular, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri

**20 oktyabr 2020-ci il**

•Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri

•Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri

•Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri

•Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndləri

**21 oktyabr 2020-ci il**

•Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri

•Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri

•Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri

**22 oktyabr 2020-ci il**

•Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dələkli kəndləri və Ağbənd qəsəbəsi

•Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri

•Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri

**23 oktyabr 2020-ci il**

•Xocavənd rayonunun Dolanlar və Bünyadlı kəndləri

•Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı və Veysəlli kəndləri

•Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndləri

•Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri

**25-26 oktyabr 2020-ci il**

•Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd kəndləri

•Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri

•Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri

**28 oktyabr 2020-ci il**

•Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri

•Füzuli rayonunun Mandılı kəndi

•Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac kəndləri

•Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qılıcan kəndləri

**30 oktyabr 2020-ci il**

•Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri

•Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri

•Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri

**2 noyabr 2020-ci il**

•Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri

•Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri

•Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri

**4 noyabr 2020-ci il**

•Cəbrayıl rayonunun Mirək, Kavdar kəndləri

•Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri

•Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndləri

**7 noyabr 2020-ci il**

•Füzuli rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar kəndləri

•Cəbrayıl rayonunun Yuxarı Məzrə, Yanarhac kəndləri

•Qubadlı rayonunun Qəzyan, Balasoltanlı, Mərdanlı kəndləri

•Zəngilan rayonunun Beşdəli kəndi
•Xocalı rayonunun Qarabulaq, Moşxmaat kəndləri
•Xocavənd rayonunun Ataqut, Tsakuri kəndləri

**8 noyabr 2020-ci il**
•ŞUŞA şəhəri

**9 noyabr 2020-ci il**
•Füzuli rayonunun Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq kəndləri

•Xocalı rayonunun Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Şuşakənd, Muxtar, Daşaltı kəndləri

•Xocavənd rayonunun Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen kəndləri

•Cəbrayıl rayonunun Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər kəndləri

•Qubadlı rayonunun Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli kəndləri

•Zəngilan rayonunun Keçikli, Ördəkli, Sobu, Qaragöz, İsgəndərbəyli kəndləri, Bartaz qəsəbəsi

•Laçın rayonunun Güləbürd, Səfiyan, Türklər kəndləri.

**10 noyabr 2020-ci il**
•Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatına əsasən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunub.

•Bəyanata əsasən 2020-ci il noyabrın 15-dək Kəlbəcər rayonu, noyabrın 20-dək Ağdam rayonu, dekabrın 1-dək isə Laçın rayonu Azərbaycana qaytarılacaq.

**20 noyabr 2020-ci il**

•Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanata uyğun olaraq, Ağdam rayonu Azərbaycana təhvil verilib. Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi azad olunub. Xatırladaq ki, Ağdam işğal edilmiş rayonlarımızın arasında əhalinin sayına görə ən böyük rayondur. Rayonda 138 yaşayış məntəqəsi var.

**25 noyabr 2020-ci il**

•Üçtərəfli bəyanata əsasən, Kəlbəcər rayonu da Azərbaycana təhvil verilib. Qeyd edək ki, Kəlbəcər ərazi baxımından respublikamızın ən böyük rayonlarından biridir. 2020-ci il yanvarın 1-nə olan məlumata görə, əhalisi 77 min nəfərdən çoxdur. İşğaldan əvvəl rayonda 147 yaşayış məntəqəsi olub.

**1 dekabr**

•Üçtərəfli bəyanata uyğun olaraq, Ermənistan silahlı birləşmələri Laçın rayonundan çıxıblar. Rayon Azərbaycan Silahlı Qüvvələrinə təhvil verilib. Əlavə məlumat üçün qeyd edək ki, ərazisi 1800 kvadratkilometr olan Laçın rayonunda bir şəhər, bir qəsəbə və 125 kənd olmaqla, ümumlikdə 127 yaşayış məntəqəsi var.

Azərbaycan Müdafiə Nazirliyinin rəsmi açıqladığı rəqəmlərə əsasən 44 günlük müharibə dövründə 3000-ə qədər igidimiz şəhidlik məqamına ucalıb. Dövlət, xalq və vətən uğrunda gözlərini qırpmadan canlarını fəda ediblər. Yüzlərlə hərbiçimiz şiddətli döyüşlərdə müxtəlif dərəcəli bədən xəsarətləri alıblar. Biz xalq olaraq heç zaman şəhidlərimizi və

qazilərimizi, həmçinin vətən uğrunda döyüşən igidlərimizi unutmamışıq və unutmarıq.

Vətən müharibəsində qazandığımız möhtəşəm qələbə Ali Baş Komandanımız İlham Əliyevin yüksək və məğlubedilməz sərkərdəlik qabiliyyətinin, ordumuzun, xalqımızın qırılmaz gücünün, möhkəm iradəsinin, vəhdətinin çox parlaq bir nümunəsidir. Müharibə dövründə dost və qardaş ölkələrin də mənəvi dəstəyini öz üzərimizdə hiss etdik. Bu da bizi bir dövlət olaraq qürurlandırdı. Haqq yolunda olduğumuzu bir daha anlatdı. Ancaq bununla belə düşmən Ermənistanı dolayısı ilə dəstəkləyən ölkələr də var idi. Ümumilikdə bütün dünyanın diqqət məkəzində olan Qarabağ savaşı dönəmində xarici dövlətlərin bəzi mətbuat nümayəndələrinin təxribat xarakterli suallarına Cənab Prezident çox məharətlə cavab verirdi. Heç şübhəsiz, bu şanlı tarixi qələbənin böyük əhəmiyyəti və əvəzolunmaz yeri qədirbilən xalqımız tərəfindən həmişə yüksək qiymətləndiriləcək və heç vaxt unudulmayacaq.

Bu qələbənin qazanılmasında şanlı və qəhrəman Azərbaycan əsgər və zabitlərinin əvəzsiz rolu danılmazdır. Ona görə də bütün Azərbaycan xalqı Vətənin xilaskarı olan bu insanları və vətən uğrunda həlak olmuş bütün şəhidlərimizi həmişə minnətdarlıq hissi ilə xatırlayacaq. Bütün bunlarla yanaşı qalib dövlət olaraq Azərbaycanın qarşısında yeni hədəflər dayanır. Ölkəmiz bu hədəflərə çatmaq üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə inamlı addımlar atır və bundan sonra da atacaq.

Vətən müharibəsində Azərbaycan işğalçı Ermənistanı tam kapitulyasiyaya məcbur edərək tarixi ədaləti və ərazi bütövlüyünü təmin etdi. 44 günlük müharibədə qazanılan şanlı qələbə sayəsində regionda yeni reallıqlar yarandı. Prezident İlham Əliyev fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında jurnalistlərin çoxsaylı suallarını cavablandıraraq respublikamızın Vətən müharibəsində şanlı qələbəsini şərtləndirən amillərə və bu qələbə

sayəsində regionda yaranan yeni reallıqlara xüsusi diqqət çəkib, ölkəmizin işğaldan azad olunan ərazilərdə həyata keçirəcəyi bərpa planından ətraflı bəhs etdi.

Hazırda qarşıda dayanan əsas vəzifəmiz azad olunmuş ərazilərimizdə quruculuq-bərpa işlərini gerçəkləşdirməkdir. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunmuş rayonlara mütəmadi səfərləri xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır. Azad olunmuş ərazilərdə böyük irəliləyiş, inkişaf gedir. Məqsəd yalnız ölkə səviyyəsində deyil, həm də uğurlu inteqrasiyaya nail olmaqla, regional və beynəlxalq müstəvidə inkişafı təmin etməkdir. 30 ilə yaxın erməni vandalizminə məruz qalan torpaqlarımızda artıq canlanmanın iqtisadi inkişafın şahidi oluruq.

Azad edilməklə gün işığına çıxan torpaqlarımıza Azərbaycan Prezidenti İlham Əliyevin tarixi səfərləri və bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm də mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb edir. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş rayonlara səfərləri cəmiyyətdə də böyük maraq və ruh yüksəkliyi ilə qarşılanır. Maraqlıdır ki, bu düşmən auditoriyasında da diqqətlə izlənilir.

Dövlət başçımız Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında olarkən yeni layihələrin həyata keçirildiyini hər kəs gördü. İşğaldan azad edilmiş bütün şəhər və rayonların baş planlarının hazırlanması ilə bağlı Prezidentin tapşırığı yubanmadan icra olunur. Dövlət başçısı bütün çıxışlarında, müsahibələrində dəfələrlə vurğulayıb ki, azad edilmiş torpaqlarda bərpa işləri ən yüksək səviyyədə icra olunur. Səfərlər zamanı Ali Baş Komandan bir daha mənfur düşmənə mesaj göndərərək bildirdi ki, onların dağıtdıqlarını, viran qoyduqlarını yenidən bərpa edəcəyik: "Mən demişdim ki, azad edilmiş torpaqlarda bütün bərpa işləri ən yüksək səviyyədə təşkil olunacaq.

Dağılmış bütün bu kəndləri biz bərpa edəcəyik. Baxın, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi nə günə salıb. Vandallar, barbarlar işğal dövründə bütün binaları söküblər, talayıblar, daşları oğurlayıblar. Hamısını bərpa edəcəyik".

İşğaldan azad edilən ərazilərimizdə erməni vandallarının illərlə törətdikləri vəhşi əməllər hər addımda nəzərə çarpır. Viran qoyulan şəhər və kəndlərimiz, dağıdılan, təhqir edilən məscidlərimiz, Yer üzündən silinən tarixi mədəniyyət abidələrimiz düşmənin nə qədər barbar, vəhşi olduğunu göstərir. Əlbəttə, düşmən bütün dağıntıları məqsədli şəkildə edib. İşğalçı Ermənistan Qarabağın dağlıq ərazisində və ətraf rayonlarda tarixi mirasları viran qoymaqla, milli izləri silməklə azərbaycanlıların bu torpaqlardakı mədəni kimliyini itirmək məqsədi güdüb. Təkcə Azərbaycan xalqına yox, ümumən bəşəriyyətə təhlükə yaradan erməni faşizminin ifşası üçün yerinə yetirilməli vəzifələrə diqqəti yönəldən Prezident İlham Əliyev deyib: "Biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz erməni faşizmini məhv etmişik. Biz bölgəmizi faşist ideologiyasından tam xilas etməsək də, onun böyük hissəsini məhv etmişik. Buna görə bizim şanlı Qələbəmiz bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət daşıyır... Erməni faşizmi ən qəddar, ən təhlükəli, ən mənfur, ən çirkin ideologiyadır və biz bu ideologiyanı məhv etdik. Hesab edirəm ki, illər keçdikcə bizim bu tarixi xidmətlər dünya tərəfindən daha da dolğun şəkildə dərk ediləcək".

Azərbaycandakı diplomatik korpusun nümayəndələri, beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri Ermənistanın işğalından azad olunmuş ərazilərimizə tez-tez səfərlər edirlər. Səfərin məqsədi diplomatları Ermənistan silahlı qüvvələrinin törətdiyi vəhşiliklər, cinayətlərlə tanış etməkdir. Diplomatları Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və digər rəsmi şəxslər müşayiət edirlər. Diplomatlar burada ermənilərin 27 il ərzində

törətdikləri vandalizmi öz gözləri ilə görürlər. Ancaq Azərbaycan öz quruculuq siyasəti ilə bütün ərazilərimizi yenidən dirçəldəcək, cənnətə çevirəcək.Azərbaycan buradakı bütün abidələri yenidən bərpa edəcək, onlara qayğı göstərəcək.

Bu gün dövlətimiz Vətən müharibəsində şəhid olmuş döyüşçülərimizin ailə üzvlərinə, qazi və hərbçilərimizə dərin ehtiram, diqqət və qayğı göstərir. Prezident İlham Əliyev şəhid ailələri və müharibə əlillərinin sosial təminatının daha da gücləndirilməsini sosial siyasətin əsas prioritetlərindən biri kimi müəyyənləşdirib. Şəhid ailələri və müharibə əlillərinə dövlət qayğısının daha da artırılması dövlətimizin başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daim diqqət mərkəzindədir.

"Azərbaycan güclü sosial siyasət aparmaqla həm öz dövlət siyasətini, öz niyyətini göstərir, həm də insanların həyat səviyyəsinin yaxşılaşdırılması üçün böyük işlər görür. Biz gələcəkdə bu siyasəti davam etdirəcəyik və ehtiyacı olan, növbədə dayanan hər bir insanın məişət problemlərinin həlli üçün çalışacağıq... Azərbaycan dövlətinin iqtisadi imkanları böyüyür, möhkəmlənir...", - deyən Prezident İlham Əliyevin sosial siyasətinin əsas gücünü ünvanlılıq, ədalətlilik və bərabərlik təşkil edir. Məhz bu siyasətin nəticəsidir ki, cəmiyyətdə məhz bu prinsiplərə əsaslanan güclü sosial baza yaradılıb.

Torpaqlarımızın azadlığı uğrunda vuruşan Qarabağ müharibəsi qaziləri, veteranları və şəhid ailələrinə göstərilən qayğı xüsusi qeyd olunmalıdır. Azərbaycan dövləti ardıcıl olaraq bu kateqoriyalı insanların sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində sistemli tədbirlər həyata keçirir. Bu məqsədlə yaradılan "Yaşat" fondunun geçəkləşdirdiyi layihələr də dövlət siyasətinin tərkib hissəsidir.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda bu istiqamətdə görülən tədbirlər sistemində ünvanlılıq prinsipi əsas götürülür, aztəminatlı, ailə başçılarını itirən, eləcə də, şəhid və qazi ailələri, xüsusi qayğıya ehtiyacı olanlar dövlətin daim

diqqətindədirlər. Başqa sözlə, dövlətimiz tərəfindən xüsusi qayğıya ehtiyacı olan insanların sosial müdafiəsi yüksək səviyyədə təşkil edilir.

Ümumiyyətlə, inkişaf edən ölkəmizdə sosial siyasət həyatımızın bütün sahələrinə öz müsbət təsirini göstərməkdədir. Həyata keçirilmiş və yaxın gələcəkdə yerinə yetiriləcək tədbirlər respublikada əhalinin sosial vəziyyətinin getdikcə yaxşılaşması üçün əsaslı zəmin yaradır. Azərbaycanın modern dövlət quruculuğunda sosial siyasətin önəmli istiqamətlərindən biri də şəhid ailələrinin, Qarabağ müharibəsi veteranları və əlillərinin sosial müdafiəsidir. Ümumilikdə, mütərəqqi sosial siyasət həyata keçirilən Azərbaycanda vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət yetirilir.

İnsana qayğı, onun maddi, mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Azərbaycan dövlətinin apardığı siyasətin mühüm prinsiplərindəndir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kurs çərçivəsində sosial məsələlərin həlli, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi hər zaman diqqət mərkəzindədir. Eyni zamanda, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, əmək haqlarının, pensiyaların artırılması, yeni sosial obyektlərin tikintisi dövlətimizin sosial siyasətinin prioritet istiqamətlərindəndir.

Azərbaycan Prezidenti İlham Əliyev Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində iştirak edərkən, şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşündə: “Müharibədən cəmi üç ay yarım keçib, ancaq şəhid ailələri və müharibə əlilləri üçün artıq belə gözəl yaşayış kompleksi, şəhərcik inşa olunub, təqdim edilib.” – deyərək onları mənzillə təmin olunmaları münasibətilə təbrik edib. Şağan qəsəbəsində də reabilitasiya mərkəzinin əsaslı təmirdən sonra açılışı olduğunu bildirən dövlət başçısı orada minlərlə qazinin hər il müalicə alacağını, reabilitasiyadan keçəcəyini, öz sağlamlığını bərpa edəcəyini qeyd edib.

2021-ci ilin dövlət büdcəsindən işğaldan azad edilmiş ərazilərin bərpası üçün ilkin mərhələdə 2,2 milyard manat vəsait ayrılıb. Əlbəttə ki, ərazilərin bərpa edilməsi üçün ilk növbədə mülki idarəetmə formasını yaratmaq zəruri idi. Hüquq-mühafizə orqanlarının strukturları artıq işğaldan azad edilmiş ərazilərdə fəaliyyətə göstərir. Hazırda Azərbaycanın "Böyük Qayıdış" kimi bir planı var və bu, artıq sürətlə icra olunmaqdadır.

30 ilə yaxın müddətdə yurd həsrəti, torpaq sevdası ilə yaşayan xalqımız üçün bundan böyük xoşbəxtlik ola bilməz. Artıq çağdaş dünya tarixinə ən mükəmməl hərbi əməliyyatlar dövrü kimi düşən 44 günlük İkinci Qarabağ savaşında qazandığımız möhtəşəm Qələbə sayəsində 30 ilin torpaq həsrətinə, nisgilinə son qoyuldu, ərazi bütövlüyümüz bərpa olundu, dünya bir daha Azərbaycanın hansı imkanlara malik olduğuna şahidlik etdi. Müqəddəs Vətən müharibəsində Azərbaycan xalqı yenilməz, məğrur xalq olduğunu nümayiş etdirdi. Mənfur düşməndən təmizlənmiş cənnət Qarabağımızda artıq yeni həyat başlayıb. 30 ilə yaxın torpaq həsrəti ilə yaşayan soydaşlarımız "Böyük Qayıdış"ı gözləyir. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan, qalib ölkənin qalib lideri, Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizə davamlı səfərləri ilə bu torpağın sahibinin Azərbaycan xalqı olduğunu bir daha təsdiqləyir. Torpaqlarımız şəhidlərimizin qanı-canı bahasına işğaldan azad edildi. Şəhidlərimizin ruhu qarşısında baş əyir, qazilərimizə Allahdan şəfa diləyirik. Azərbaycanın igid oğulları: "Ömürdən pay olar, Vətəndən pay olmaz!"- deyib "Dəmir yumruq" əməliyyatını uğurla başa çatdıraraq tarixi torpaqlarımızda üçrəngli bayrağımızın dalğalanmasını, Qarabağın döyünən ürəyi Şuşamızın özümüzə qayıtmasını, Cıdır düzündə 28 ildən sonra Novruz tonqallarının alovlanmasını, "Xarıbülbül" musiqi festivalının keçirilməsini, bu məkandan muğamlarımızın səslənməsini, Şuşa və digər məscidlərimizdə azan səsinin eşidilməsini, bir sözlə, illərdir səbirsizliklə gözlə-

diyimiz, sıralandıqca bitib-tükənməyən arzularımızı gerçəkliyə çevirdilər. Azərbaycanı daim irəliyə aparan milli ruh, vətənpərvərlik hissi torpaq, vətən sevgisi 44 günlük İkinci Qarabağ müharibəsində qələbəmizi şərtləndirən başlıca amil oldu.

Cənab İlham Əliyev zəfərimizin baş memarı və əsas hərəkətverici qüvvəsi olmaqla Azərbaycan tarixinə adını qalib sərkərdə kimi qızıl hərflərlə yazdı. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva şəhid ailələrin daim yanında olaraq mənəvi dəstək nümayiş etdirir. Cıdır düzündə təşkil edilən "Xarıbülbül" festivalında ürəkdən sevinməsi və fərəhlə iştirak etməsi buna bariz nümunə idi.

Eyni zamanda, müharibə şəraitində yaşayan ölkə olaraq ordu quruculuğu prioritetliyini qorudu. Torpaqlarımızı işğaldan azad etmək gücünə, qüdrətinə malik, dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşan Azərbaycan Ordusu 44 günlük İkinci Qarabağ müharibəsində qəhrəmanlığı, şücaəti ilə dünyanın ən yenilməz, məğrur ordularından biri olduğunu təsdiqlədi. Bu gün qürurvericidir ki, Azərbaycanın "Dəmir yumruq" əməliyyatı, müharibə təcrübəsi dünya dövlətləri tərəfindən öyrənilir.

Dövlətimizin başçısı İlham Əliyev artıq Qarabağ münaqişəsinin tarixə qovuşduğunu, regionun inkişafında yeni səhifənin açıldığını, ölkəmizin gələcəyi ilə bağlı aydın baxışların olduğunu bildirir. Vətən müharibəsinin yaratdığı yeni reallıqlar ilk növbədə regionda sabitlik və təhlükəsizliyin möhkəmlənməsi üçün yeni əməkdaşlıq formatlarının yaradılmasını bir zərurətə çevirir. Artıq işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işlərinə start verilib. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiqlənib. İşğaldan azad edilmiş ərazilərimizdə təkmil idarəçilik sistemi formalaşdırılır ki, bu da öz növbəsində hədəflərə qısa zamanda nail olmağa əsas yaradır.

Bu gün yeganə problem Ermənistanın minalanmış sahələrin xəritəsini Azərbaycana vermək istəməməsi, Böyük Qayı-

dışın gerçəkləşməsinə mane olmaq istəyi idi. Bu maneə də dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində aradan qaldırılır. Belə ki, iyunun 12-də dövlətimizin başçısı növbəti uğura imza atdı. Ağdam rayonu üzrə minalanmış ərazilərin xəritələrinin Ermənistan tərəfindən Azərbaycana təhvil verilməsi möhtərəm Prezidentimizin və Azərbaycan diplomatiyasının növbəti qələbəsidir. Cənab İlham Əliyev bütün beynəlxalq platformalarda Azərbaycan torpaqlarının minalanması məsələsini qaldırıb, beynəlxalq birliklərə bu xəritələrin Ermənistandan alınması üçün çağırışlar edib, işğalçı dövlətin onları saxlamasına heç bir hüquqi əsasının olmadığını bəyan edib. ABŞ Dövlət Departamentinin, Avropa İttifaqının və Gürcüstan Respublikasının bu məsələdə fəal iştirakı və Ermənistanın minalanmış ərazilərin xəritələrini vermək məcburiyyətində qalması bütün münaqişəli məsələlərin həllində beynəlxalq hüquqa əsaslanan Azərbaycanın növbəti böyük nailiyyətidir.

İşğaldan azad edilmiş ərazilərimizə hər səfərində sanki havanın da torpaqlarımızın tarixi sahibinə qayıtması sevincini yaşadığını xüsusi qeyd edən Prezident İlham Əliyevin təşəbbüsü, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xarıbülbül" musiqi festivalının Cıdır düzündə 28 ildən sonra yenidən keçirilməsi, bu möhtəşəm mədəniyyət tədbirində müxtəlif xalqların musiqi yaradıcılığının harmoniyasının yaradılması Azərbaycanın tolerant, multikultural dəyərlərə bağlılığının təsdiqi, gələcək perspektivlərin təqdimatı oldu. Bu gün qalib Azərbaycan məğlub Ermənistana sülh razılaşmasını təklif etməklə regionun inkişafında yeni səhifənin açılması istəyini nümayiş etdirir. Azərbaycan bu humanist, tərəqqipərvər addımı ilə Ermənistana keçmişlə deyil, gələcəklə yaşamağa çağırış edir.

Bu kitabı hazırlamaqda məqsədimiz 44 günlük Zəfər tarixinə biz müəlliflərdən kiçik bir töhfə verməkdir. Qarabağlıların yaşadıqları ağrı-acının qazanılan qələbə ilə necə yox

olduğunu, arzu və istəklərinin onların dilindən qələmə almaqla ictimaiyyətə çatdırmaqdır. Məcburi köçkün statusundan azad olmağın hiss-həyəcanını yaşayan bu insanların sevincli anlarını xəyali də olsa göz önünə gətirərək canlandırmadıqdır. Bu məqsədlə də uşaqlıq və yeniyetməlik çağları Qarabağda keçən ziyalılarla həmsöhbət olduq, onların keçmişdə yaşadıqları acılı-şirinli xatirələrini bölüşdük.

## Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

XX əsrin 80-ci illərinin sonları, 90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir.

2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, mülki şəxslərdən ibarət "könüllü dəstələri" yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan–Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda, bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh və təhlükəsizlik üçün əsas təhdiddir. Bu hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər.

Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi. Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi. Ermənistan Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur oldu.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə qərara alıram:

1. Hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 dekabr 2020-ci il***
***//Azərbaycan. - 2020.-3 dekabr.- S.1.***

## Prezident İlham Əliyevin çıxışından sitatlar

“Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı”.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

“Bu torpaqları düşməndən azad edən Müzəffər Ordunun Ali Baş Komandanı kimi Azərbaycan bayrağını qaldırmışam və bu bayrağın altında Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edirəm. Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Azərbaycanda böyük qayıdış, böyük inkişaf prosesi başlayır”.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

“Müharibə Ermənistanın yadından çıxmasın, unutmasınlar ki, dəmir yumruq yerindədir”:

***Prezident İlham Əliyev //Azərbaycan.-2021.***
***- 8 yanvar.- S.1-5***

“Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz. Vahid Azərbaycan dövləti var. Çoxmillətli,

çoxkonfessiyalı, mütərəqqi Azərbaycan dövləti var. Bütün Azərbaycan vətəndaşları, bütün xalqların, dinlərin nümayəndələri normal yaşayırlar, mehribanlıq, sülh şəraitində yaşayırlar. Erməni xalqı da belə yaşayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur. Mən bu 44 gün ərzində çoxsaylı müsahibələrimdə demişəm, onlar bizim vətəndaşlarımızdır və onlar görəcəklər ki, Azərbaycan rəhbərliyi altında onlar yaxşı yaşayacaqlar, onlar kriminal, qorxaq xunta rejimindən öz yaxasını qurtarmalıdırlar".

***Prezident İlham Əliyev //Azərbaycan.- 2020.- 18 noyabr.- S.1-10.***

"Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də, tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Biz bunu birliyimiz sayəsində qazanmışıq, gücümüz sayəsində qazanmışıq".

***İlham Əliyev yeni tarix yazır //Azərbaycan.-2020.- 31 dekabr.- S.1;4.***

"Şəhidlərimizin qanı nahaq yerə tökülmədi- biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu! Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq!"

"Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq"

***Mehriban Əliyeva***
***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti***
***//Azərbaycan. 2020.- 5 dekabr. -S.1.***

"Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz".

***Ali Baş Komandan İLHAM ƏLİYEV //Azərbaycan.- 2021.- 16 fevral.- S. 1-8.***

**Xarıbülbül musiqi Festivalı Şuşa , Azərbaycan 2021**

“Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik! İnanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür! Hər bir Azərbaycanlı üçün bu iftixar nöqtəsidir. Şuşa bizim mədəniyyətimzin, tariximizin rəmzidir! Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu. Biz onlarsız yaşaya bilmərik! Təsəvvür edə bilmərik!”

**Ulu Öndər Heydər Əliyev**

“Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim, Şuşanı azad etdim. Bu böyük qələbədir və şəhidlərimizin ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözün aydın olsun, Dünya azərbaycanlıları! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik. Şuşa bizimdir! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

**Azərbaycan Respublikasının Prezident İlham Əliyev**

“Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaya Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımzda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, “Dağlıq Qarabağ ordusu”nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz

haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

**Azərbaycan Respublikasınını Prezidenti İlham Əliyevin sentyabrın 27-də xalqa müraciətindən. //Azərbaycan müəllimi, 2 oktyabr 2020-ci il nömrə 32 (8896)**

"Bu gün işğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır".

***İlham Əliyev, Ali Baş komandan***
***//Azərbaycan müəllimi***
***23 oktyabr 2020-ci il nömrə 35 (8899).***

"Biz Şuşamızı qaytardıq! Bu əlamətdar tarixi hadisə münasibəti ilə hamınızı təbrik edirəm."

**Şuşa şəhərinin işğaldan azad edilməsi münasibəti ilə Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "instaqram" səhifəsində tarixi qələbə ilə bağlı paylışımından**

"Bu anlarda bütün xalqımız təsvirəgəlməz qürur və sevinc hissləri keçirir! Şuşa işğaldan azad edilib! Bu münasibətlə bütün həmvətənlərimizə səmimi təbriklərimi çatdırıram! İllər boyu davam etmiş kədər, həsrət, faciəli hadisələrdən sonra tarixi ədalət bərpa olunur! Vətənimizi müdafiə edən və əzəli Azərbaycan torpaqlarını işğaldan azad edən qəhrəmanlar nəslinin bugünkü igidlikləri Azərbaycan tarixinə əbədi daxil olacaq və hər birimizin yaddaşında həmişəlik qalacaq!

Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi bizim rəşadətli əsgərlərimizin qəhrəmanlığı və igidliyi, dözümlülüyü və qələbə əzmi sayəsində mümkün olur! Vətən naminə canlarından keçmiş şəhidlərimizə Allah rəhmət eləsin!

Əziz qardaşlar və bacılar!

Biz Şuşamıza qatıtdıq! Bu əlamətdar tarixi hadisə münasibətilə hamınızı bir daha təbrik edirəm. Qoy bizim bütün uğurlarımızın və nailliyətlərimizin, bütün qələbələrimizin qarantı olan xalq- Prezident birliyi günbəgün möhkəmlənsin!

Bu gün məhz bu birlik Azərbaycanın öz gücünü nümayiş etdirməsinə imkan yaradır!

Milli həmrəylik, xalqın etimadı, inamı və dəstəyi sayəsində bizim Prezidentimiz bütün mürəkkəb məsələlərin öhdəsindən uğurla gəlməyi bacarır! Qoy Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Şuşa bizimdir!

Qarabağ Azərbaycandır!”

**Şuşa şəhərinin işğaldan azad edilməsi münasibəti ilə Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “instaqram” səhifəsində tarixi qələbə ilə bağlı paylışımından. //Azərbaycan .2020.- 11 noyabr .-s.8**

“Azərbaycan xalqının igid oğulları Zəfər naminə, Azərbaycanın gələcəyi naminə canlarından keçib. Bu gün mən şəhidlərimizin ailələri ilə birlikdə kədərlənir, Vətən naminə canından keçməyə hazır olan oğullar tərbiyə etmiş valideyinlərin qarşısında baş əyirəm! Şəhidlərimizin qanı nahaq tökülmədi-biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu!

Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq! Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq. Onlar qəlbimizdə daim yaşayacaq!

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti***
***Mehriban Əliyeva***
***//Azərbaycan.- 2020.-5 dekabr.-S.1.***

“Qarabağ Azərbaycandır və nida” ifadəsi artıq bizim qələbəmizin rəmzinə çevrildi. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürür hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

**Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətindən.**
**//Azərbaycan. -2020.- 11 noyabr 16 oktyabr. –S.1; 5.**
**4**

## “Qələbə sevincim”

Əzmli, qüdrətli Azərbaycanımın dilbər guşəsi olan Qarabağımız Müzəffər Ali Baş komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik və uzaqgörən siyasəti və şanlı ordumuzun rəşadəti nəticəsində, şəhidlərimizin qanı, canı bahasına 30 ildən sonra azadlığına qovuşdu.

Prezident İlham Əliyevin 3.10.2019 tarixində Rusiya Federasiyasının Soçidə təşkil olunan “Valday” Beynəlxalq Diskussiya Klubunun iclasının plenar sessiyasında çıxışında qətiyyətlə söylədiyi “Qarabağ Azərbaycandır və nida” ifadəsi bütün dünyanı silkələdi. Cənab Ali Baş Komandanın yumruğu ətrafında sıx birləşən insanlarımızın inamı, xalqımızın həmrəyliyi və Azərbaycan ordusunun məğlubedilməzliyi sayəsində bu nidanın hökmünü bütün dünya gördü.

Ali baş komandanımız dəmir yumruğu ilə tarixi və ilahi ədaləti bərpa edən xalqımızın sərkərdəsi əsrlərə, nəsillərə örnək və dastan olacaq qətiyyəti və hünəri ilə Azərbaycan tarixinin keçmişinə və gələcəyinə adını qızıl hərflərlə həkk etdirdi.

Ermənistan ordusunun müzəffər Azərbaycan ordusunun qarşısında aciz qalaraq məğlubiyyətə düçar olması bölgənin həqiqi və real güc sahibini təsbit etmiş oldu. Qüdrətli Azərbaycan öz şərtlərini Ermənistana qeyd-şərtsiz qəbul etdirdi. 44 gün ərzində Azərbaycan Ermənistana öz gücünü göstərdi.

Qələbə sevincini qalib dövlətin vətəndaşları olaraq biz xaricdə yaşayan azərbaycanlılar böyük coşqu ilə qarşıladıq. 44 günlük vətən müharibəsi ərəfəsində biz xaricdə yaşayan azərbaycanlılar da dəmir yumruq ətrafında sıx birləşərək öz vətəndaşlıq borcumuzu yerinə yetirməyə çalışırdıq.

Noyabrın 8-də Ali Baş Komandan İlham Əliyevin “Şəhidlər xiyabanı”nda “Şuşa sən azadsan!” “Əziz Şuşa, biz qayıtdıq!”sözlərini sevinc göz yaşları ilə dinləyirdim. Mən öz hisslərimi sözlə ifadə edə bilmirdim.

Qarabağ mənim ürəyimdədir. Mən əslən qarabağlı olduğum üçün (anam tərəf Şuşa, atam tərəf Ağdam) 30 ildə böyük bir Qarabağ dərdini ürəyimdə daşıyırdım. Əzizlərimin məzarlarını ziyarət edə bilməməklə yanaşı, uşaqlıq çağlarımın ən gözəl anlarını keçirdiyim Qarabağımın dilbər guşələri sayılan Şuşaya, Ağdama 30 il idi ki,həsrət qalmışdım.

Ağdamda törədilən vəşiliklərin ailəmlə birlikdə canlı şahidi olan bir qarabağlı xanım kimi illərdir bu anın bir gün gələcəyinə, Qələbə sevincini yaşayacağıma inanırdım, ümidimi əsla itirmirdim.

Belə bir tarixi günü yaşadığıma görə çox sevinirəm. Şükürlər olsun ki, ən böyük arzumuz gerçək oldu. Bizim üçün Azərbaycanın hər yeri Vətəndir, lakin doğma yurdumuza qayıtmaq bizim üçün əvəzsiz bir hədiyyədir. Bu sevinc hisslərini bizə bəxş etdiyinə görə şanlı Azərbaycan Ordusuna və müzəffər Ali Baş Komandanımıza təşəkkür edirik.

***Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsindəki xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunmuş, Avropa Azərbaycanlıları Konqresinin baş katibi, Finlandiya Azərbaycanlıları Assosiasiyasının sədri, Avropa Azərbaycanlıları Konqresinin baş katibi Arzu Oqtay***

## ”Biz qələbə çaldıq”

Mən Əliyev Xəyal Ələkbər oğlu 1981-ci ildə Qubadlı rayonunun İşıqlı kəndində anadan olmuşam. Ailəmiz 7 nəfərdən ibarət idi: nənəm, atam, anam, qardaşım və iki bacım. Çox xoşbəxt və mehriban ailədə böyüyürdüm. Heç ağlıma gəlməzdi ki,bu xoşbəxtlik 11 yaşıma qədər davam edəcək. Həmin illərdə erməni faşistləri torpaqlarımıza hücum etmişdi. Kəlbəcər, Şuşa, Laçın uğrunda döyüşlər gedirdi. Atam Ələkbər Əliyev də haqsızlıga dözməyərək döyüşlərə qatıldı. Öz ətrafına igid oğulları toplayaraq müharibəyə yollandı. Dəfələrlə düşmənə sarsıdıcı zərbələr endirilir və düşmən tərəf ağır itkilərə məruz qalırdı. Döyüşlərdə atam bir neçə dəfə yaralansa da, yenə də müharibə zonasına qayıdırdı. Laçın rayonunun Suarası kəndində ağır ölüm-dirim döyüşləri gedirdi. Atam 7 avqust 1992-ci il tarixində öz dəstəsi ilə həmin kəndə köməyə yollanır. Burada mühasirəyə düşürlər. Atam öz əsgərlərini xilas etmək üçün əlbəyaxa döyüşə girir. Neçə-neçə erməni quldurunu məhv edir. Atam 9 güllə yarası alır. Düşmən tərəfə əsir düşməmək üçün sonunçu gülləsini öz gicgahına tuşlayaraq şəhidlik zirvəsinə ucalır. Ölümündən sonra Azərbaycanin Milli Qəhrəmanı fəxri adına layiq görülür.

Atamın ölümü və torpaqlarımızın düşmən əlinə keçdiyinə görə biz 1993-çü ildə Bakı şəhərinə gəldik. Çətin olsa da, burada həyatımızı davam etdirdik. 27 il vətən həsrəti ilə yaşadıq. Nəhayət ki, 2020-ci il sentiyabrın 27-də Ali Baş Komandanımız İlham Əliyevin əmri ilə 2-ci Qarabağ müharibəsi başlandı. Müzəffər ordumuz 44 gün ərzində bütün torpaqlarımızı işğaldan azad etdi. Biz qələbə çaldıq. Bu tarixi hadisəni yaşadığım üçün sevincimin həddi-hüdudu yoxdur. 44 günlük Vətən müharibəsində əsgərlərin yanında, döyüş bölğələrində olmaq, onlara qayğı göstərmək, ruh yüksəkliyi vermək mənim ən şərəfli borcum idi. Çünki uşaqlığımın ən acı xatirəsini unuda bilmirdim. Mən həm atamı, həm də torpaqlarımızı itirmişdim.

27 il idi ki, qisas hissi məni boğurdu. Çox şükür olsun ki, biz qələbə çaldıq. 19 fevral 2021-ci il də Prezidentimizin göstərişi ilə mən və qardaşım Ruhin öz doğma vətənim Qubadlıya getdik. Bu hissi sözlə ifadə etmək çətin olsa da qeyd edim ki, həmin an mən bir anlıq hər şeyi unutdum. Qəhər məni boğdu, göz yaşlarıma hakim ola bilmədim. Kəndimizə, evimizə gedəndə atdığım hər addım mənə uşaqlığımı, atamla olan gözəl xatirələri xatırlatdı. Ən çox da ona görə sevinirəm ki, indi atamın və bütün şəhidlərimizin ruhu şaddır. Qisasları alındı. Tökülən qanları yerdə qalmadı. Evimizi ziyarət edəndə Allahıma şükürlər etdim ki, bu sevinci mənə yaşatdı. Doğulub boya-başa çatdığı və uğrunda şəhid oldugu torpaqdan bir ovuc götürüb atamın məzarına gətirdik. ”Ruhun şad olsun, ata!”– deyərək qəbrinin üzərinə tökdük.

Bu şanlı qələbə üçün bütün şəhidlərimizin qarşısında baş əyirəm. Qazilərimizə Allahdan tezliklə şəfa diləyirəm. Prezidentimiz Ali Baş Komandan İlham Əliyev cənablarına öz dərin təşəkkürümü bildirirəm. Bizi qalib xalq olaraq qürurlandırdı. Xarici siyasəti və məntiqli qərarları ilə bizə bu qələbə günlərini yaşatdı.

***Xəyal Əliyev***
***Azərbaycan Respublikası***
***FHN TTNDA***
***S.Ə. Dadaşov adına***
***ETLKİM istitutunun elmi işçisi***

## “Hər gün Şuşamı düşünürdüm”

Şuşa. Vətənimiz. Gözəlliklər, möcüzələr diyarı. Cənnətməkan olan Şuşa, təbiətinin əsrarəngizliyi ilə ruhumuz, mənəviyyat ocagımız. Mən on yaşımadək bu nagıllar diyarında yaşamışam. Çox gözəl, qayğısız uşaqlığım olub. Həyatımızda gözəl bir harmoniya var idi. Amma taleyimizdə nələr varmiş, nələr... Nə acı, kədərli, faciəli günlər bizi gözləyirmiş. Sən demə, bu gözəlliklər içində, qoynumuzda erməni adlı ilan bəsləyirmişik. Bu zəhərli ilan Qarabağımıza, Şuşamıza göz dikib, zəhərini tökməyə münasib şərait gözləyirmiş. O gündən mənim uşaqlığım yarımçıq qaldı və nağıl bitdi... Yaşamaq uğrunda mübarizə başladı. Atışmalar, top-tüfəng səsləri yuxumuzu ərşə çəkdi. Hər atışma vaxtı zirzəmiyə qaçardıq, artıq öyrəşmişdik. Soyuqdan əsə-əsə anama sığınardım, balaca əllərimi açıb, Allaha dua edərdim:”Allahım, top bura düşməsin, atam salamat gəlsin”. Dua edə-edə yuxu aparardı məni... Hər səhərimizi kiminsə şəhid olması, ”Alazan” tipli raketin kiminsə evinə düşməsi xəbəri ilə açırdıq. 1992-ci ilin 26 fevralında ermənilər Xocalıda camaata divan tutdu. Bütün Şuşa ağlayırdı. Bu hadisədən sonra Şuşada atışma daha da intensivləşdi və yaşamaq çox təhlükəli olduğu üçün atam bizi Füzuliyə yola saldı. Mən Vətənimdən, Şuşamdan, uşaqlığımdan, məktəbimdən, dostlarımdan ayrı düşdüm. Həyatımız parçalandı... Şuşa işğal olundu və biz şuşalılar mənən məhv olduq. 28 ildə ancaq cismimiz yaşadı. Məcburi köçkün kimi ağır damğanı alnımızda daşıdıq. Böyüdüm. Hər gün Şuşamı düşünürdüm. Ermənilərin sosial şəbəkədə paylaşdıqları Şuşanı görəndə qəlbim parça-parça olurdu. Onlar bizim torpağımızda kef edərkən, biz burada Şuşa həsrətli əzizlərimizi itirirdik. Ancaq itirirdik... Gözümüz yolda qulağımız səsdə idi. Günlər keçir, həyat davam edirdi.

Nəhayət... Nəhayət ki, o gün - Ali Baş Komandanın xalqa müraciəti. Yuxusuz gecələr, həyəcan dolu günlər, xalqın, dövlətin, elin, millətin birlik manifesti. Və Şuşa!!! ”Şuşa azaddır”

kəlməsi. Ümid yerimiz, fəxrimiz, Vətənimizin böyük oğlu İlham Əliyevin bu sözləri təkcə bizə yox, bütün Azərbaycana, dünyaya səs saldı. Qələbə! Qələbə! Qələbə! Bu hissi hər birimiz ruhu, canı, nəfəsi ilə duydu. İtirdiklərimiz, yaşadıqlarımız bizi bir daha silkələdi. Yanımızda görmədiyimiz doğmalarımız! Çoxları küçə və meydanlara axışdı. Əksəriyyətimiz isə qərib yatan əzizlərimizə tələsdik. Bölüşmək, çatdırmaq üçun...

İndi isə daha gözəl duyğularla yaşayırıq. Şəxsən mən elə bil yenidən doğulmuşam. Bu günə sükürlər olsun! Allah ŞƏHİDLƏRİMİZƏ rəhmət eləsin. Qazilərimizə şəfa versin. Şuşa bizi gözləyir!!!

***Nərmin Qasımova***
***Şuşa Humanitar Kollecinin müəllimi***

## **“O günləri xatırlamaq çox çətindir.”**

Qarabağ, işğal olunmuş digər torpaqlarımız bizə, biz torpaqlarımıza qovuşuruq. Əsgərinə, ordusuna güvənən xalqımız ərazi bütövlüyünün bərpasına doğru müqəddəs və şərəfli yol gedir. Azərbaycan və azərbaycanlılar öz tarixlərinin qürur dolu anlarını yaşayırlar. Bu yaşantıdan nəsibini alanlardan biri də odur - jurnalist həmkarımız Seymur Verdizadə. 19 oktyabr 2020-ci il. Bu gün onun günüdür. Axı Azərbaycan Prezidentinin Cəbrayıl rayonunun işğaldan azad edildiyini açıqladığı kəndlərinin sırasında doğulub boya-başa çatdığı Soltanlının da adı var. Azərbaycana professorlar bəxş etmiş ziyalılar kəndi - Soltanlı. O Soltanlı ki, onun və ümumən Cəbrayılın Ermənistan tərəfindən işğal olunduğu xəbərini Seymur Türkiyədə, təhsil aldığı Ankarada eşitmişdi.

"Qardaş Türkiyənin nüfuzlu Qazi Universitetinin tarix fakültəsində təhsil alırdım. Bu ağır xəbər məni çox sarsıtdı, həyatdan küsdüm. Xatirimdədir ki, tələbə yoldaşlarım məni ovundurmağa çalışırdılar. O vaxt Yaxın Şərq ölkələrindən Türkiyəyə çoxlu qaçqın pənah gətirmişdi. Mənə də eyni nəzərlərlə baxırdılar. Hiss edirdim ki, tələbə yoldaşlarımın mənə yazığı gəlir." - deyən müsahibimiz o dövrü xatırlayır.

S.Verdizadə tələbə yoldaşlarının ona yazıq nəzərlərlə baxışlarına düz 5 il dözməli olduğunu, bu hissin ağırlığı ilə yaşamaq, təhsil almaq məcburiyyətində qaldığını vurğulayır. "Üzərindən illər keçdikdən sonra o günlərə qayıtmaq məni sıxır. Gənc yaşımda qəddim əyilmişdi. Hər gün düşünürdüm. Yəni mən Soltanlı bulağından su içə bilməyəcəm? O torpağın havasını içimə çəkməyəcəm? Axı necə ola bilər ki, evimizə gedə bilməyim? Özümə verdiyim suallar çox idi. Doğmalarım, əzizlərim, dostlarım nə edirlər, harada yaşayırlar? Onlar nə yeyirlər, nə içirlər? Cavabsız suallarım həddən artıq çox idi. Təhsilimi yarımçıq qoyub Vətənə dönmək istədim. Valideynlərim qəti şəkildə etiraz etdilər. Təhsilimi başa vurub qayıtdım.

Həyatın ağırlığını özüm də yaşadım. Nə deyim, nə danışım, çox çətindi o günləri xatırlamaq..."- deyən həmkarımız ani olaraq söhbətə ara verir...

S.Verdizadə 19 oktyabr 2020-ci il tarixinin yaddaşına əbədi yazıldığını əminliklə söyləyir və sözünə tam fərqli ovqatda davam edir: "Azərbaycanda qələbə ab-havası hökm sürür. Prezident İlham Əliyev düşmən tapdağından qurtulmuş yurd-yuvalarımızın adlarını açıqlayır. Bir qayda olaraq dövlət başçısı bunu günorta və axşam saatlarında edir. Ancaq xoş müjdələri günün istənilən saatlarında gözləyirik. Soltanlım isə, obrazlı desəm, səhər gəldi. Günəş kimi doğdu. Sanki qəddim dikəldi. Mən artıq köçkün deyiləm. Mənim də doğulduğum kənd var. İndi bizim də dağımız, bağımız, yaylağımız var. 19 oktyabr tarixi soltanlılıların ömrünə qızıl hərflərlə yazıldı. Daha yayda 3-5 gün dincəlməyə ucuz ev axtarmayacağıq. Çünki öz evimiz olacaq. Biz təkcə torpağımıza deyil, həm də evimizə qovuşmuşuq. Yanıb külə dönsə də, biz o evləri yenidən tikəcəyik. Alnımızın təri, gözümüzün nuru ilə ilan mələyən çölləri abadlaşdıracağıq. Alnımızdan süzülən hər damla tər bir fidana qol-qanad verəcək. Yalnız Soltanlı və Cəbrayıl deyil, ümumilikdə Qarabağ cənnətə çevriləcək. Və biz bu dünyadakı cənnətdə yaşayacağıq".

***Seymur Verdizadə,***
***jurnalist***

**“Bütün yaralar sağalacaq… Biz özümüzə dönürük”.**

Daha onu Xirosimaya bənzətməyəcəklər. Daha o ruhlar şəhəri də deyil… 2008-ci ildə “Lonely Planet” jurnalı, Şotlandiyanın nüfuzlu “The Press and Journal” nəşri Ağdamı həmin Xirosimaya bənzətmişdi. 2010-cu ildə Əl-Cəzirənin internet nəşri Ağdamı “ruhlar şəhəri” adlandırmışdı. Ağdam bizə qayıtdı… Bu qayıdışın yolları hamar olsun deyə, minlərlə can qurban oldu… Düz 27 il hər il şəhidlər verdik… Mücadilə etdik, hirsimizi içimizə boğduq… Həmişə alınmadı… Ramil Səfərov bayrağımıza kəm baxan marqaryanları cəhənnəmə vasil elədi… Mübariz İbrahimov səbirsizləndi, səngəri aşıb tək başına düşmənə qan uddurdu, ər kişiliyin nə olduğunu sübut elədi… 2016-cı ildə aprel döyüşlərində ərənlərimiz düşmənə Azərbaycanın gücünü göstərdilər… Ağdam bizə qayıtdı… O qayıdışı yaşamaq üçün Füzulidə sinə hərbə meydan oldu, Cəbrayılda hüququndan keçən əsgər, hərə bir qəhrəman oldu, namusunu hifz etmək üçün Zəngilanı bağrımıza basdıq, BAYRAĞINI yüksəltmək üçün Qubadlıdan geçdik… ŞUŞAda ucaltdıq bayrağımızı! Ağdam bizə qayıtdı… Gözəl şəhərim,sən qayıdana qədər, sənin yoxluğunda təkcə səni yox, üç doğmamı da itirdim… Atamı, anamı, qardaşımı… Bilirəm ki, indi onların ruhları şaddır! Kabusa artıq son qoyuldu! Dəyişdi hər şey! “Kabuslar şəhəri” Ali Baş Komandanın diplomatiya cəbhəsində və döyüş meydanındakı hünəriylə, rəşadətli ordumuzun qüdrəti ilə düşmən tapdağından azad edildi. Ağdam bizə qayıtdı… Bütün yaralar sağalacaq… Hər şey özünə dönür, dönür hər şey… Ağdam da üzü dönüklərdən deyil, heç kim bilməsə də o bilirdi ki, onun yollarının qansız-qadasız etmək üçün nə qədər qan tökülüb… Nə qədər insan qanını qaşığa qoyub dünyanın hər yerində küçələrə, meydanlara çıxıb “AZƏRBAYCAN, QARABAĞ, AĞDAM” deyib… Hər şey bərpa olunacaq, hər şey: çox dəyərli tarixi-etnoqrafik abidə olan İmarət, Muğam-Poeziya Teatrı, Qarabağda yeganə açıq

məbəd olan Ağdam məscidi, dünyada ikinci olan Ağdam çörək muzeyi, məşhur Muğam mərkəzi, məşhur Kəhrizlərimiz, məşhur Ağdam bazarı, məşhur Çay Evi, qızıl balıq təsərrüfatları… “Qarabağ bülbülləri”nin səsi yenə göylərə ucalacaq! “Natəvan qızlar bayramı” yenə dünyaya səs salacaq!

Daha Ağdama “tini, küçəsi olmayan şəhər” deyilməyəcək. Daha Ruhlar şəhəri olmayacaq! Xirosima ilə də müqayisə edilməyəcək! Ağdam elə yenə də doğma, isti, qonaqlı-qaralı, qürurlu, varlı-hallı, güvənəcəyimiz AĞDAM olacaq. Həm ötkəm, həm səxavətli, həm qonaqpərvər, həm də mərd Ağdam… Ağdam bizə qayıtdı və… Sən olasan gülüstan, sənə hər an can qurban, AZƏRBAYCAN!

***Mətanət Ağamirli,***
***Əməkdar jurnalist***

## “44 gün...ömrümüzə yazılan 1056 saat...”

44 gün...ömrümüzə yazılan 1056 saat... O hissləri sözlə ifadə etməyə çətinlik çəkirəm. Günləri deyil, dəqiqələri, anları gözləyirdik. “Ali baş komandan bu gün hansı şəhərin, kəndin işğaldan azad olunması xəbərini verəcək?” - deyə gözümüz cənab prezidentin səhifəsində qalırdı. Nə xoş halıma ki, həmin dövrdə Lider televiziyasında "Çıxış Yolu" proqramının canlı yayımları davam edirdi və hər qələbə müjdəsini efirdən tamaşaçılara vermək şansım var idi. Efirdə ağlamağı heç sevmirəm, amma hər dəfə bu mujdəni efirdən söyləyəndə gözümdən sevinc yaşı axdı, əllərimin titrəyişi, səsimin hıçqırığı, ürəyimin çırpıntısı... Təkrarolunmaz, heç vaxt yaşamadığım və bundan sonra da heç vaxt yaşamayacağım hisslər idi. Mənə elə gəlirdi ki, o anda 30 ilin həsrətinə dözə bilməyib dünyadan köçən qarabağlıların və 1-ci Qarabağ Müharibəsi şəhidlərinin ruhu studiyada dolaşır. Nəhayət ki, ürəklə onlara:“Ruhunuz şad oldu!” - deyə bildim. Bu əvəzolunmaz anları bizə yaşadan, canı bahasına Ana vətəni düşmən tapdağından qurtaran, boynubükük xarıbülbülü əsirlikdən xilas edən, torpağı da, milləti də, dövləti də illərin həsrətindən qurtaran şəhidlərimiz oldu. Qələbə xəbərləri gəldikcə, cəbhədə savaş böyüdükcə şəhidlərin də sayı artırdı. Bir gözümüz sevinib, bir gözümüz ağladı. O anda söz verdim! Adı ilə tarix yazan, Qarabağı bizə qaytaran şəhidlərin əziz xatirəsini yaşatmaq üçün bundan sonrakı jurnalistika fəaliyyətimdə əlimdən gələni əsirgəməyəcəyəm. Və tarixi Şuşa qələbəmizdən sonra çəkiliş qrupumuzla bərabər yola çıxdıq; şəhidlərin məzarını və ailələrini ziyarət etməyə, onların qəhrəmanlığını təbliğ etməyə. Artıq neçə aydır bu missiyanı davam etdirirəm. Şəhid atası ilə danışmaq, şəhid anasının gözünün içinə baxmaq, oğlundan danışıb yarasının qaysağını qoparmaq adamdan ürək istəyir. Mən hər şəhid ocağında ürəyimin bir parçasın qoyuram. Onu da deyim ki, şəhid analarının gözünə baxa bilmirəm...Mən anlayıram, onlar

qəhrəmanlar dünyaya gətirmiş qadınlardır, onların adı ilə millət, dövlət fəxr edir, amma bütün bunlarla yanaşı, onlar övlad itirən valideynlərdir....İki oğlunu şəhid verən Ziba ananın gözünə necə baxım mən axı...? Sentyabrın 27-də, Vətən Müharibəsi başlayan gün mən çəkiliş qrupu ilə Masallıda, Aprel şəhidi XTQ-nin hərbiçisi Nurlan Əsgərlinin evində, Ziba ananın qonağı idim və elə o qapıya çatar-çatmaz Vətən Müharibəsinin başlanması xəbərini aldıq. Ziba ana sevinirdi, ikinci oğlu, XTQ-nin hərbiçisi İntiqam qardaşının qisasını alacaqdı! Həmən gün Ziba ana şəhid oğlu Nurlanın bir dəst hərbi geyimini mənə verib dedi ki: "Al, bu formanı geyinib efirə çıxarsan, Nurlanımdan danışarsan, qoy balamın ruhu şad olsun, bilirəm, bu müharibədə Qələbə bizimdir, bu formanı geyinib Şuşaya gedərsən!"

Mən Ziba ananın arzusunu yerinə yetirdim, şəhid Nurlanın hərbi formasını geyinib efirə çıxdım, amma nə biləydik ki, qələbəni gözləyən Ziba ananın ikinci oğlu İntiqam da şəhadətə yüksələcək....

Mən, Ziba anaya verdiyim sözü hələ tutmamışam, şəhid Nurlanın hərbi formasını geyinib Şuşaya getmək, şəhidlərə sarılan bayrağı öpmək, qəhrəmanların uyuduğu torpağa diz çökmək var hələ öndə...

***Nuranə Gülər, jurnalist,***
***"Çıxış Yolu" sosial***
***televiziya layihəsinin rəhbəri***

## “Könül vətən sorağında...”

Dolanbac yollar, sıldırımlı qayalar, vahiməli dağlar, yamyaşıl meşələr, Tərtər çayı, billur kimi bumbuz bulaqlar və uşaqlığım... Mən Kəlbəcəri məhz bu cür xatırlayıram. Sonuncu dəfə 15 yaşımda gördüyüm Kəlbəcər mənim hər il yay tətillərimin keçdiyi məkan olub. Atam əslən Kəlbəcərdən idi. 16 yaşında-məktəbi bitirdikdən sonra Kəlbəcərdən çıxsa da, doğma yurduna çox bağlı adam idi. Elə bir il olmazdı ki, bizi Kəlbəcərə aparmasın. Sonuncu dəfə Kəlbəcəri 1991-ci ildə görmüşəm. Təəssüf ki, 1993-cü ildə Kəlbəcər düşmən əlinə keçdi. Amma bu illər ərzində biz Kəlbəcəri heç vaxt unutmadıq. Elə bir gün yox idi ki, atam oranı xatırlamasın. Danışanda kövrəlir, gözləri dolurdu. “Görəsən, nə vaxtsa Kəlbəcəri bir də görə biləcəm?”- deyirdi.

Çox inanırdı ki, bir gün mütləq Kəlbəcər geri qayıdacaq. Kəlbəcər qayıtdı, amma atam artıq yox idi... 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda hər kəs kimi mən də böyük həyəcan keçirdim. Doğrudanmı, Qarabağımız bizə qayıdırdı? Həmin günlər bunun yaratdığı təəssüratları sözlə ifadə etmək mümkün deyil. Hər gün kəndlərimiz, şəhərlərimiz azad olunduqca yaşadığım sevinci izah etmək çox çətindir. Prezident Ali Baş Komandan İlham Əliyevin xalqa hər müraciətini səbirsizliklə gözləyir, onun çıxışını diqqətlə dinləyirdim və dövlət başçısının dedikləri hər kəs kimi məndə də əminlik yaradırdı ki, qələbə çox yaxındadır. Həmin günlərdə İctimai Televiziyada aparıcısı olduğum “Diqqət mərkəzi” və “Diqqət Mərkəzi Yekun” verilişləri hər gün efirə çıxırdı. Və mən hər dəfə efirə girəndə :“Görəsən, bu gün Kəlbəcərin işğaldan azad olunması xəbəri gələcək?”- deyə düşünürdüm. Çünki o xəbərin qürurunu məhz efirdə yaşamaq istəyirdim. Allaha şükürlər olsun ki, bu sevinci mənə yaşatdı. Ümumiyyətlə, xoşbəxt aparıcıyam ki, Qarabağın azad olunması günlərində şərəfli işi yerinə yetirmişəm, o xəbərlərin yaratdığı sevinci, təəssüratları

verilişimdə qonaq olanlarla birlikdə tamaşaçılara ötürmüşəm. Xüsusilə noyabrın 8-də, Prezident İlham Əliyev xalqa müraciət edərək Şuşanın işğaldan azad olunmasını elan etdikdən dərhal sonra efirə çıxaraq bu xəbəri hərbi ekspert Üzeyir Cəfərov və Anar Şuşalı ilə şərh etməyimizi, o möhtəşəm hissləri yaşadığım günü heç vaxt unutmayacam. Bir də, təbii ki, noyabrın 25-ni - Kəlbəcərin geri qaytarıldığı günü. Əslində, Kəlbəcərin geri qayıtması sevincini noyabrın 10-da imzalanan üçtərəfli bəyanatdan sonra yaşamağa başladım. Hələ müharibə getdiyi günlərdə düşünmüşdüm və bunu efirdə də səsləndirmişdim ki, Kəlbəcər azad olunan gün atamın məzarına gedərək ona bu xəbəri çatdıracam və bir gün mütləq Kəlbəcərdən onun məzarı üçün bir ovuc torpaq gətirəcəm. Noyabrın 10-da isə bu arzum artıq gerçək olurdu. Və nəhayət, noyabrın 25-də doğma Kəlbəcər düşməndən azad edildi. Hər kəs yazır, zəng edir, təbriklərini çatdırırdı. Həmçinin media qurumları da təəssüratlarımı öyrənirdi. Amma mən özümdən daha çox bu günü görə bilməyən, amma ruhunun dinclik tapdığına inandığım atam üçün sevinirdim. Atamın məzarına getdim, ona bu xəbəri çatdırdım. Bilirəm ki, onun kimi illərlə torpaq həsrəti ilə yaşayan, amma yurdlarının azad olunmasını görə bilməyən insanlar olub. Bu qələbə onların da qələbəsidir. Vətənini canından çox sevən, dünyanın ən gözəl yerini belə, doğma yurduna dəyişməyən, öz torpağının qoxusu ilə yaşayan insanların.

Mən Kəlbəcərə gedəcəm. Mütləq gedəcəm. Uşaqlığımı xatırlamaq, o xoşbəxt illərə bir anlıq geri dönmək, atamın ruhunun dolaşdığı o yerləri bir də görmək, oranın havasını udmaq, suyunu içmək, Qələbənin qürurunu yaşamaq, atamın məzarına bir ovuc torpaq gətirmək və "Salam, Kəlbəcər, mən yenə gəlmişəm"- demək üçün...

***Nigar Sabirqızı, teleaparıcı***

## "İnsan harada yaşayırsa-yaşasın, cənnət onun Vətənidir!"

Biz cənnətimizdən 30 ilə yaxın didərgin düşdük. İnsanları yuvasından didərgin salmaq böyük günahdır. Uşaq vaxtı yadımdadır, quş yuvasına yaxın getməyi belə bizə qadağa etmişdilər. Nənə-babalarımız həmişə deyirdilər ki, yuvaya əl uzatmaq və onu uçurtmaq ən böyük günahdır. Bu günahı edən, bu ədalətsiz torpaq iddiasını, müharibəni,qırğını salan, evlərimizi darmadağın edib, yer üzündən silən, dünyada misli görünməyən, içimizdə yaşayıb, suyumuzu-çörəyimizi yeyib harınlamış mənfur düşmənimiz ermənilərdir.

1993-cü ildə 23 avqust tarixində Füzuli rayonu Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edildi. Həmin illəri çox yaxşı xatırlayıram.... Ali məktəbi bitirib rayonumuza qayıtdım, ailə qurdum, ev qurdum, övlad sahibi oldum. Çox xoşbəxt idim. Xoşbəxtliyin ilk addımlarını atmağa balamışdıq ki, dünya başımıza uçdu. Müharibə başladı. Yuvalarımız dağıldı, ocaqlarımız söndü, evlərimiz xarabaya döndü və biz didərgin düşdük, köçkünlük həyatına başladıq. Biz və bütün qohumlar əvvəl rayonun bizdə olan kəndlərinə gəldik. Elə bilirdik ki, bir neçə günə evimizə, ocağımıza qayıdacağıq. Ona görə də elə əynimizdəki paltarlarımızla çıxmışdıq. Haradan bilərdik ki, biz uzun illər o yuvamıza qayıtmayacağıq. Mən ailəmlə birlikdə müxtəlif ünvanlarda kirayələrdə, yataqxanalarda şəraitsiz yerlərdə yaşamağa başladıq. Əlbəttə, iş tapana kimi çox çətin günlərimiz oldu. 1998-ci ildən Vətəndaş cəmiyyətində QHT sektorunda çalışmağa başladım. Çalışdıq-vuruşduq və çətin günləri geridə qoymaq, övladlara təhsil vermək və onların sağlam həyat tərzi keçirməsi üçün daha böyük layihələrdə fəaliyyətlərimizi davam etdirdik. Şükürlər olsun, övladlara Ali təhsil verdik. Hazırda müxtəlif peşələrə yiyələniblər. 28 il bir igidin ömrüdür. Bizim övladlarımız o torpaqlarda doğuldular, lakin başqa yerlərdə böyüdülər. Valideynlərimiz hər gün

eşitdiyimiz vətən həsrəti, doğma torpaqlar haqqında, o torpaqların iqlimi, təbiəti, havası, suyu, buz-bulaqları, dağları-dərələri, çayları-gölləri və xüsusilə də, mehriban, səmimi, qonaqpərvər camaatı haqqında danışıb, o günləri tez-tez xatırladıqca, sən demə, övladlarımız bu yanğını, bu hissləri, bu həsrətin nə demək olduğunu bizlərə hiss etdirmədən daxillərində bir guşədə saxlayıblarmış. Bəzən bizə laqeyd görünən bu gənclərimiz içlərində saxladıqları böyüklərin vəsiyyətlərini, biz valideynlərin hisslərini duyub döyüşə getdilər və 44 günlük müharibədə qanları-canları bahasına həsrətə son qoydular.

1988-ci ildən başlayan Ermənistan təcavüzünə qarşı mübarizədə minlərlə füzulili döyüşmüş, yüzlərlə füzulili şəhid olmuş, yaralanmış, itkin düşmüşdür. Füzulinin 1.100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfərdən çox müxtəlif dərəcəli əlili var. Füzuliyə erməni təcavüzü nəticəsində 36.361 nəfər uşaq zərər çəkmiş, onlardan 155 nəfəri valideynsiz qalmışdır. Füzulidə hər bir ailə həmin zərərçəkmiş ailələrdən oldu. Bizim ailəmizdə də şəhidlərimiz, ağır itkilərimiz oldu: Cənab Prezident tərəfindən Azərbaycan Respublikası Milli Qəhrəmanı adına layiq görülən Elxan Zülfüqarov (əmimoğlu), Azərbaycan Respublikasının “Vətən Uğrunda”medalı ilə təltif edilmiş Elman Quliyev (xalam oğlu), şəhid Süleyman Səfərov (xalam nəvəsi), Qazi - Cənab Prezidentin sərəncamı ilə II-ci Qarabağ müharibəsində Cəsur döyüşçü, Füzuli, Xocavəndin azad olunmasına görə medalı ilə təltif olunan Govşad rotasının komandiri Adil Quliyev (əmimoğlu), qeyd edim ki, o həm də I-ci Qarabağ müharibəsi veteranıdır. Və digər yaxın qohumlar. Əlbəttə, bütün şəhidlər bizim övladlarımız, qardaşlarımızdır. Allah cəmi şəhidlərimizə rəhmət eləsin, qazilərimizə can sağlığı versin. Bütün şəhid ailələri qarşısında baş əyirəm, onlara səbr diləyirəm və hər birinin Qarabağda bir evi olduğunu qeyd edirəm. Bu illər ərzində çox təəssüflər olsun ki, ata-anamı da itirdim və onlara doğma ocaqlarını görmək qismət olmadı. Biz doğma torpaqlarımızın işğaldan azad olunmasını

səbirsizliklə gözləyirdik. İstəyirdik ki, o torpaqlara qayıdıb oranın havasını udaq, saf bulaqlarından su içək, doğma torpaqda əkin-biçin edək. Bəli, vaxt yetişdi, bu gün biz doğma yurda qayıtmağa hazırlaşırıq. Ali Baş Komandanımız Cənab İlham Əliyev və Şanlı Ordumuz bizim həsrətimizə son qoydu, yurdumuzu düşmən tapdağından azad etdi. Biz məcburi köçkünlər bu gün həmin xoşbəxt anları yaşayırıq. Heç bir çətinlik bizi qorxutmur. Bilirik ki, şəhər və kəndlərimiz az bir zaman içərisində bərpa ediləcək, əvvəlkindən də yaxşı şərait yaradılacaq. Mən cənab Prezidentin bir çıxışını unutmuram. O qeyd etdi ki:"Bu gün bizim televiziya kanallarımız, internet saytlarımız uzun illər məcburi köçkün həyatı yaşamış insanları, onların duyğularını, onların sözlərini ictimaiyyətə təqdim edəndə onların ən çox sevdiyi və dediyi ifadəni mən bildirmək istəyirəm. Deyir ki:" Artıq mən qaçqın deyiləm." Bilirsiniz, bu nə deməkdir? Bu, bəlkə də, ən xoşbəxt anların təzahürüdür, həm bu insanların həyatında, həm bizim hamımızın həyatında və mənim həyatımda. Deyir ki:" Mən artıq köçkün, qaçqın deyiləm." Onlar mənfur düşmən tərəfindən bizə yapışdırılmış ifadədən öz canlarını qurtarmaq istəyirdilər və bu gün gəldi."

Bəli, bu gün gəldi və biz artıq məcburi köçkün deyilik, öz doğma yudumuzun sakinləriyik. Bu böyük qələbəni bizlərə yaşadan Ali Baş Komandamıza, Müzəffər ordumuza təşəkkür edir, şəhidlərimizə Allahdan rəhmət diləyirəm.

***Zəminə Səfərova***
***sosioloq, ictimai xadim,***
***BMT-in Miqrant Qaçqın Qadın və Gənclər Mərkəzinin sabiq sədri,***
***Beynəlxalq Avrasiya Mətbuat Fondunda Proqram Departamentinin sosioloqu,***
***"İnkişaf və Rifah Naminə" İctimai Birliyin sədri***

## “Ruhların sevindiyi gün...”

*Bu yazımı Vətən, torpaq həsrətilə dünyadan köçən atam Yusif həkimə - Ağayev Yusif Qaraş oğluna ithaf edirəm.*

27 il... 1993-cü ilin iyun ayı idi. Vəziyyət get-gedə pisləşirdi. Yaxın keçmişimizdə baş verən Xocalı faciəsi, alınmaz qala Şuşanın, Laçının, Kəlbəcərin işğalı, ön cəbhədən gündəlik aldığımız xəbərlər hamını həyəcan, təşviş içərində saxlayırdı. Atılan topların, raketlərin, mərmilərin səsi, başımızın üstündən keçən qırıcı təyyarələrin qulaqbatıran uğultusu müharibənin bütün dəhşətlərini uşaq yaddaşıma ömürlük həkk elədi. Heç vaxt yadımdan çıxmaz, məktəbə gedərkən yanımızda saxlayıb, maşının pəncərəsindən: “Bir Xocalı faciəsini də siz yaşamaq istəyirsiniz? Valideynləriniz sizi niyə burda saxlayır?”- deyən oğlanların səsi. Biz də beş bacı. Hamının əli-qolu işdən-gücdən soyumuşdu. Hamı bir gün o gözəl torpaqların da yağı düşmənin tapdağı altına düşəcəyinə inanmağa başlamışdı...

14 yaşım vardı kəndimizdən çıxanda. 8-ci sinfi bitirmişdim. Kəndimizdə, evimizdə keçirdiyim o son gecəni heç bir zaman unutmadım. Elə bil ürəyimə dammışdı ki, mən evimizdən həmişəlik çıxıram. Bu mənim o evdə son gecəm idi. Tülkülərin, çaqqalların səsi bütün kəndi bürümüşdü. Necə vahiməli ulaşırdılar. Çox qorxurdum. Yatmağa da qorxurdum, yatmamağa da. Gözüm qapıda qalmışdı ki, indicə ermənilər evimizə girəcək...

Doğulduğum Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndi Arazboyu kəndlərdən biridir. Yaşadığımız evi Araz çayından ayıran Maralyan kəndinin üzüm sahələri idi. O vaxt ön cəbhədə bir hadisə baş vermişdi. Eyni gündə kəndimizə neçə evə şəhid cənazəsi gətirildi. Düşmən gecəyarısı posta hücum edib, əsgərlərimizin hamısını yatdığı yerdə küt alətlərlə, işgəncə ilə öldürmüşdülər. Döyüşdə olan qonşularımız danışırdılar ki, hiyləgər düşmən gecə vaxtı tülkü-çaqqal kimi ulaşıb postda olan əsgər-

lərimizi aldatmışdı. Arazqırağı meşələrdə də tülkü, çaqqal çox olurdu. Hər gecə səs-səsə verib ulaşırdılar. O hadisədən sonra nə vaxt o səsi eşitsəm ağlıma tülkü, çaqqal xislətli erməni gəlirdi, elə indi də.

Nə vaxt yuxuya getdiyimi bilmirəm səsə oyandım: “Dur, hazırlaş, gedirik!”. Bakıda yaşayan xalamın həyat yoldaşı ana nənəmi, dayımın yoldaşını və körpə uşaqlarını, bir də biz qızları kənddən aparmağa gəlmişdi. Atam-anam, balaca bacım qalırdı. Fikirləşirdik ki, məktəb açılana kimi qalıb qayıdarıq. O vaxta qədər də vəziyyət düzələr. Bir yandan da o evə, o kəndə bir də qayıtmayacağımı hiss etmiş kimi hər şeyi gözlərimə yığmağa çalışırdım. Və hisslərimdə yanılmadım... O həsrət düz 27 il çəkdi.

Biz çıxandan sonra vəziyyət daha da pisləşmişdi. Bir həftə sonra ana babam anamı və balaca bacımı da Bakıya gətirdi. Artıq kənddən qadınlar demək olar ki, çıxarılmışdı, cəbhə bölgəsindən kənarda qohum-əqrəbalarının yanında məskunlaşmışdılar. Kişilər isə sona qədər kənddə qalıb, mübarizə aparmaq əzmindəydilər. O dövrdə atam Böyük Mərcanlı kənd xəstəxanasının baş həkimi işləyirdi.Avqust ayının 23-də Cəbrayıl rayonu da işğal olunandan sonra mərkəzi xəstəxana da bizim kəndə köçürülmüşdü və qospital kimi fəaliyyət göstərirdi. Bu ərəfədə Arazqırağı kəndlərin işğal olmayacağı xəbəri bu kəndlərin sakinlərində ruh yüksəkliyi, inam yaratmışdı. Araz çayı şimali cənubdan ayıran sərhəd olduğu üçün İran İslam Respublikasının ərazisinə həmsərhəd 17 km-lik ərazini də toxunulmaz edirdi. Bizim kəndimiz də həmin əraziyə düşürdü. Oktyabr ayının 2-də atam Bakıya gəlib balaca bacımın 2 yaşını qeyd edib, səhəri günü anamı və bacılarımı da götürüb kəndə qayıtdı. Hətta qayıdarkən evimizdən çıxartdığımız əşyaları da qaytardılar ki, 17 km-ə qədər sərhəddə ermənilər girə bilməzlər. Bakı-Naxçıvanı birləşdirən dəmir yolu xətti bizim kəndin ərazisindən keçirdi. Kənddə guya camaatın köçürülməsinə kömək məqsədilə evlərin əşyalarını vaqonlarla

daşıyacaqdılar. O qədər insanların əşyaları vaqonlarda qaldı. Yəqin ki, o da bir təxribat idi. Sonra bildik ki, o vaqonlar elə dolu, hazır şəkildə aparıldı..

Atamgilin kəndə qayıtması cəmi 20 gün çəkdi. Oktyabr ayının 23-ü günü atam işə gedəndə kəndin girəcəyində əmim oğlu qarşısına çıxıb: "Əmi, getmə, ermənilər kəndə girdilər"- deyib, yoldan qaytarmışdı. Atam sonuncu dəfə evə gəlib əsgər şineli varmış onu (deyirdilər ki, kimin evində döyüşçü paltarı var ermənilər birinci o evi dağıdırmışlar), dərman qutusunu və bir də radiosu vardı onu götürüb,Arazın qırağına - anamgilin yanına gəlmişdi.

Bu ərəfələrdə də Füzuli, Horadiz tərəfdən yollar bağlandığı üçün yeganə pənah yeri Araz çayı qalırdı. Soyuq oktyabr ayı, buz kimi soyuq Arazın suyu Cəbrayıl, Zəngilan camaatının xilaskarı oldu. Orda yaşadıqlarını – Arazı keçərkən burulğana doğru getmələrini, bacımın əlindən çıxmasını, bir ata üçün " ya ikimiz də axmalıyıq, ya da uşağı buraxmalıyam" qorxusunu, həyəcanını, anamın o gecəni çayın kənarında keçirməsini kaş ki, atam özü yazmış olardı. Həmişə o hadisələri təkrar-təkrar yaşıyırmış kimi həyəcanla danışırdı, biz də eyni həyəcanla dinləyirdik.

Bizim həyətimizdən baxanda Cənubi Azərbaycanın dağətəyi kəndləri, kasıb komaları görsənirdi. Əkin-biçinlə, heyvandarlıqla məşğul olurdular. Ən maraqlı isə Novruz bayramını çox təmtəraqla qeyd edirdilər. Ora keçəndən sonra atam bacımla dağın başına çıxıb ordan evimizə baxmışdı. Həmişə danışırdı ki, min bir əziyyətlə tikib, sonra da qoyub gəldiyim evimə baxdım,ətrafıma baxanda o qədər əzab-əziyyətdən, o boyda ev-eşikdən əlimdə qalan yalnız əlimdən tutan 2 yaşlı Ayselin( balaca bacım) əlini görəndə özümə söz verdim ki, nə qədər ömrüm var, imkanım çatacaq yalnız uşaqların elmi, təhsili üçün çalışacağam. Ömrünün sonuna qədər elə də elədi...

Sonra müharibədən də betər məcburi köçkünlük dövrü başladı. 1993-cü ilin noyabr, dekabr ayı olardı. İndiki Şirvan (o

vaxtkı Əli Bayramlı) şəhərində məskunlaşdıq. Bütün idarə, müəssisə rəhbərlərinə qaçqınların məskunlaşdırılması ilə bağlı tapşırıq verilmişdi. Atamın qrup yoldaşı Rahib həkim (Allah rəhmət eləsin) bizi Şirvana çağırdı. Bütün qohum-əqrəbadan uzaq düşsək də, atamın əsas istəyi bizim təhsil almağımızla bağlı olduğu üçün məskunlaşdığımız yer də Şirvan şəhəri 1 saylı orta məktəbə yaxın yerləşirdi. Yanvar ayında, o vaxt 3-cü yarimildən dörd bacı məktəbə başladıq. Kəndimizdə olduğumuz müddətdə Yusif həkimin, Nazilə müəllimənin övladları, bir məktəbin sevimliləri birdən-birə "qaçqın uşaqlar" olmuşdular... O sözün yaşatdığı ağır psixoloji zərbəni heç bir sözlə ifadə etmək mümkün deyil. Ancaq yaşayan bilər. Ailəlikcə çox çətin günlər yaşadıq. Atam işləmirdi. O boyda xəstəxananın baş həkimi işsiz qalmışdı. Özü də ancaq bir şeyi fikirləşirdi ki, mütləq tezliklə torpaqlarımız qaytarılacaq, yenə öz ev-eşiyimizə qayıdacağıq. Bu illər ərzində valideynlərimizin tək təsəllisi bizim tələbə adını qazanmağımız idi. Bir-birimizin ardinca beşimiz də ali məktəbə qəbul olduq. Bacılarımın ikisi Tibb Universitetini bitirdi, ikimiz Pedaqoji Universitetin tələbəsi olduq, balaca bacım kimya texnalogiyası sahəsində ali təhsil aldı. Valideynlərimizin istəyinə uyğun ailə qurduq. Həyat davam edirdi. Amma harda olmağımızdan asılı olmayaraq, xoş, qayğısız uşaqlığımızı, gözəl günlərimizi qoyub gəldiyimiz doğma torpağımızın canımıza hopmuş həsrəti, nisgili həmişə bizimləydi. Hər yaz gələndə atamla Araz çayının kənarında yediyimiz yemliyin, qanqalın dadı, ətri gəlirdi burnumuza. Hər qar yağanda: "Oranın qışı, qarı da bir başqaydı"- deyirdik. Hələ buz bulaqlarını, təmiz havasını, müqəddəs daşını, bərəkətli torpagını demirəm..

Ali məktəbi bitirəndən sonra təyinat üzrə Cəbrayıl rayonunun ilk Milli Qəhrəmanlarından olan Vüqar Hüseynovun adını daşıyan Daşkəsən kənd tam orta məktəbində pedaqoji fəaliyyətə başladım. Kiçik bir Cəbrayıl idi ora mənimçün... "Qaçqın" sözünün üzümüzə vurulmadığı bir yerdi. Pedaqoji

heyətinin 80-90 faizi cəbrayıllılar olan bir kollektivdə hər gün sözümüz-söhbətimiz o yerlərlə bağlı olurdu. “Qaçqın məktəbləri kimə, nəyə lazımdı?”- deyənlərə, o məktəblərin saxlanması bəlkə də dövlətimizin ən uğurlu siyasətlərindən biri idi, deyərdim, o torpaqları unutdurmamaq adına... Dəfələrlə Bakı şəhər məktəbinə yerdəyişmə etmək imkanım olsa da, hər gün ora gedib-gəlmək Cəbrayılda olmaq kimi idi mənimçün. Bilirdik, nankor ermənilərin o cənnət diyarımızı dağıtdığını, daşı daş üstündə qoymadığını, Ağdamın, Cəbrayılın, Füzulinin yerlə yeksan olduğunu... Hərdən ermənilərin çəkdiyi kadrlarda Şuşanı, Laçını, Kəlbəcəri görəndə göz yaşını saxlamaq qeyri-mümkün idi. Biz 27 il xatirələrimizdə yaşatdıq o cənnət məkanları.

2016-cı il ailəmiz üçün çox ağır bir il oldu. Bir gün o yerlərə mütləq qayıdacağımız ümidi ilə yaşayan atam vətən, torpaq həsrətilə dünyadan köçdü. Atamın acısını yaşadığımız bir vaxtda məlum aprel döyüşləri baş verdi. İllərdən sonra 4-5 günlük də olsa içimizdə böyük bir ümid yarandı. Müharibə uşaq yaddaşımıza təsəvvür olunmayacaq qədər böyük zərbələr vurdu.Müharibə çox dəhşətli bir şeydir. Amma biz müharibəni istəyirdik. Biz itirilmiş torpaqlarımızı, itirilmiş qürurumuzu, yarımçıq qalan uşaqlığımızı, xoşbəxt günlərimizi geri istəyirdik. Və inanırdiq... Hansı yolla olur-olsun bir gün o torpaqlara qayıdacağımıza... Sentyabr ayının əvvəlləri idi. Ailəvi Göygölə getmişdik. Göygölə qalxan yolun üstündə “Kəlbəcər 80 km” yazılmış bir lövhə vurulmuşdu. Göz yaşları ilə baxmışdım o lövhəyə. Və o 80 km mənə o qədər uzaq görünmüşdü ki...

Sentyabr ayının 27-si səhər-səhər xəbərlərə baxırdım, yenə cəbhə bölgəsində atəşkəsin pozulması xəbərini oxuyanda, əvvəlki “atəşkəs pozulmalarından” biri sanmışdım. Amma son vaxtlarda cəbhəyanı ərazilərdə müharibə ilə bağlı hazırlıq işləri bizi həm ümidləndirirdi, həm də qorxudurdu. Elə həmin günü günorta xəbərlərdə ordumuzun əks-hücuma keçdiyini və doğulduğum Böyük Mərcanlı kəndi ilə bərabər bir neçə kəndin

işğaldan azad olunması xəbərini eşidəndə yaşadığımız hissləri sözlərə sığışdıra bilmirəm. Hamı sevincindən ağlayırdı. 27 ildən sonra o torpaqlara bu gün qürur hissi ilə rəşadətli, müzəffər, qalib dediyimiz ordumuzun, əsgərlərimizin ayağı dəymişdi. 27 ilin həsrəti, nisgili gözlərimizdən sel olub axırdı. Həmin gün azad olan təkcə torpaqlarımız deyildi, o torpaqların insanları çiyinlərində yük kimi gəzdirdiyi, ürəklərini məngənə kimi sıxan, kiminin acıyırmış kimi, kiminin lağ, təhqir kimi üzlərinə vurduğu "qaçqın" sözünün əsarətindən qutarmışdı. Hamı sevinirdi.

30 illik yolu 44 günə keçdi müzəffər ordumuz. Hər şey o qədər gözəl təşkil olunmuşdu ki, biz yalnız qələbəyə köklənmişdik. Hər gün bir ayrı sevinc, hər gün bir ayrı həyəcan... Ali baş Komandanımızın qələbə xəbərlərini, çıxışlarını, müsahibələrini necə həyəcanla gözləyirdik. 44 gün bizə bir ömrə sığacaq qədər böyük həyəcanlar yaşatdı. Uşaqdan böyüyə hər kəsin ürəyi Vətən üçün döyünürdü. Biz əsl birliyin, bərabərliyin, həmrəyliyin gücünü gördük. Biz əsl qələbəni gördük. Gülə-gülə ölümə meydan oxuyan oğullarımızı, hər iki gözünü, əlini-ayağını Vətən üçün fəda edən qazilərimizi, oğullarını, ərlərini çiyinlərində cənnətə yola salan mərd analarımızı, bacılarımızı, qız-gəlinlərimizi gördük. Biz Azərbaycan əsgərini, Azərbaycan bayrağını görəndə hönkür-hönkür ağlayan cənublu qardaşlarımızı gördük. Uşaqdan böyüyə hər kəs Vətən oldu, Qarabağ oldu, qarabağlı oldu! Qarabağ Azərbaycan oldu! Burada birdə ən böyük qələbə millətin özünə, soy-kökünə qayıdışı oldu. Bu gün artıq soy-kökü ilə qürur duyan, milliyyətini, dilini, dinini, bayrağını, torpağını tanıyan, sevən bir nəsil var.

Yaşadığım bu qədər sevinclə bərabər içimdə bir nisgil var- kaş bu günləri bir gün bu günlərin olacağına hamıdan çox inanan atam da görərdi. Həmişə Orxana - böyük nəvəsinə: "Mən inanıram ki, bir gün torpaqlarımız işğaldan azad olacaq. Həmin günü mən görməsəm də, qəbrimə gəlib, "baba,

torpaqlarımız azad oldu, ruhun sevinsin" – deyərsən."- deyirdi. Dediyini elədik.

Bu gün müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli oğullarımızın əzmi, iradəsi sayəsində Cəbrayılımız, Füzulimiz, Zəngilanımız, Qubadlımız, Ağdamımız, Laçınımız, Kəlbəcərimiz, Şuşamız – Qarabağımız azaddır! Bu gün Qarabağ müharibəsi başlayan gündən torpaqlarımızın azadlığı uğrunda canını fəda etmiş bütün şəhidlərimizin, Vətən həsrəti, torpaq nisgili ilə dünyadan köçən bütün ata-analarımızın ruhu sevinir, şaddır! 28 il məzarları əsirlikdə, düşmən tapdağında nigaran qalan ruhlar sevinir bu gün!

Biz ölənə qədər bu gözəl günü bizə yaşadan hər kəsə - əsl qardaşlıq nümunəsi olan Türkiyə, Pakistan Respublikalarına, xüsusilə də, bu QƏLƏBƏnin səbəbkarları şəhidlərimizə və qazilərimizə borcluyuq!

***Günay Yusifqızı***
***Cəbrayıl rayonu Böyük Mərcanlı kəndi***
***Heydər Əliyev adına liseyin***
***təşkilati işlər üzrə direktor müavini***

## "Biz Laçına qayıdırıq"

Bir neçə il bundan əvvəl bir qrup jurnalistlə Cocuq Mərcanlıya gedirdik. Horadiz şəhərini keçəndən sonra məni qəribə hisslər bürüdü. Sanki bu yol yarıda bitməyəcək, düz Laçına kimi uzanacaqdı. Əslində 2016-cı ilin aprel zəfərinin rəmzi əhəmiyyəti də elə bundan ibarət idi. Bu, düşmənə də, dünyaya da bir mesaj idi ki, biz gəlirik.

Həmkarlarım və Allah şahididir. Dedim ki, əminəm, bu yol bizi Laçına aparacaq. Jurnalistikamızın ağsaqqalı Cahangir Məmmədli sözlərimdən təsirləndi, professorun gözləri doldu. Səfərdən dönən kimi "Bu yol bizi Laçına aparacaq" sərlövhəli məqalə yazacağını dedi.

Və budur, artıq biz Laçına qayıdırıq! Yenə qarışıq hisslər keçirirəm. Sevinirəm, kövrəlirəm, beynimdə xatirələr canlanır, qayğısız uşaqlığıma qayıdıram. Qələbənin ilk günlərində bir az da nigaranlıq var idi. Cavabsız suallar rahatlıq vermirdi. Görəsən, Hacısamlıdakı ata evimiz salamatdırmı? Qəbirlərimizi vandallar dağıtmayıb ki? Xaçınyalında Seyid Məmməd Ağanın türbəsi yerindədirmi? Paşa bəyin tut bağını doğramayıblar ki? Bir də özümə təsəlli verirəm. Əşi, bizim kəndlər döyüş gedən yerlərdən uzaqda idi. O qədər erməni nə gəzirdi gedib oralara çıxsın. Sonra yenə yadıma düşür ki, bizim ata evimizi o vaxt öz əsgərlərimiz hospital kimi istifadə edirdi. Deməli, düşmən də oralara kimi gedib çıxmışdı. Niyə getməsin? Axı ermənilər həmişə ölkəmizin ən gözəl, ən səfalı yerlərinə göz dikib. Ancaq şükür ki, artıq bunlar keçmişdədir. Şükür ki, babamın məzarı da, Seyid Məmməd Ağanın məqbərəsi də vandalların əlindən salamat qurtarıb. Müzəffər əsgərlərimiz ziyarət yerlərimizin şəkillərin çəkib göndəriblər. İnşallah qayıdanda ilk işimiz onların ruhları qarşısında baş əymək olacaq.

Doğrusu, heç Laçınla necə görüşəcəyimi, ona nə deyəcəyimi təsəvvür edə bilmirəm. Bilmirəm, "Biz qayıtdıq!"- deyə hayqıracam, yoxsa hönkürüb o daşlara, ağaclara sarılacam. Hərdən mənə elə gəlir ki, sevincdən elə yoldaca ürəyim partlayacaq. Amma gedib çıxa bilsəm, yəqin Laçından üzr istəyərəm. 30 ilə yaxın düşmən tapdağı altında qoyub gəldiyimizə görə. Bağışlasa, dinləmək istəsə, bu illər ərzində başımıza gələnləri danışaram ona. Deyərəm, əmilərim həsrətinə dözmədi, Məhəbbət Kazımov "Laçınım mənim", "Bu il yenə gedəmmədim bizim dağlara" deyə-deyə getdi bu dünyadan. Amma indi onların ruhu şaddı, çünki sən yenə bizimsən. Deyərəm, kəndiçimiz Heydər kişinin nadinc nəvəsi Ehtiram var idi ha, yadına gəlir? İndi o, əməkdar artistdir. Muğam ifaçısı Ehtiram Hüseynov. Avazı bürüyəcək "Üst taxta"nı, "Zeynalın şamı"nı, Muncuqlu körpüsünə kimi gedib çıxacaq səsi. Yenə elimizdə

çal-çağır olacaq, tonqallar qalanacaq. Qələbə tonqalları, bayram tonqalları. Tüstüsü düşmənin gözün tökəcək.

Bir sözlə, ürəyim doludur. Doğma ocaqlarımızı görmək üçün səbrsizlənirəm, günləri sayıram. Elə bil bu 28 ili ürəyimizə daş bağlayıb dözən biz deyildik. Ancaq biz unutmadıq, unutdurmadıq. Laçın bizim xatirələrimizdə, şeirlərimizdə, mahnılarımızda yaşadı. Biz bütün Qarabağı əməllərimizdə yaşatdıq, ona doğru irəlilədik. Çox şükür ki, biz düşməni Prezident İlham Əliyevin dediyi kimi, "iti qovan kimi" qovduq. Bu yolda canlarını fəda etmiş şəhidlərimizin ruhu qarşısında baş əyirəm, sağlamlığından keçmiş qazilərimizə sonsuz təşəkkürümü bildirirəm. Biz onlara və bütün əsgərlərimizə ömrümüzün sonuna kimi borcluyuq.

***Namiq Mayılov***
***"Region Plus"***
***Analitik jurnalının redaktoru***

**"Əhd etmişəm ki, torpağını öpəcəm"**

Mən, Vəliyev Vüsal Ehram oğlu 1986-ci ildə Cəbrayıl rayonu Balyand kəndində anadan olmuşam, uşaqlığım orada keçib və xoş xatirələrlə yadımda qalıb. Erməni işğalçılarının digər ərazilərimizlə yanaşı Cəbrayıl rayonunu da işğal etdikdən sonra Bakı şəhərinə köçdük. Bizim rayonda əhali əsasən üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğul idi. Gözəl yerlər idi. Oradan çıxarkən mənim 6 yaşım vardı. Bir sabah səhər yeməyində oyandıq ki, insanlar təşviş içində qışqıra-qışqıra qaçırlar və məlum oldu ki, ermənilər artıq kəndin bir neçə kilometrliyindədirlər. Eyni zamanda, kənd yüksəkliklərdən atəşə tutulurdu. Həmin o qarışıqlıqda özümüzü (uşaqlı-böyüklü 11 nəfər) əmimin maşınının içində gördük və çox çətinliklə oradan uzaqlaşdıq. Bir neçə kənddə qohum evlərində gecələməklə Bakıya gəldik. Adam bir neçə gün gedib qonaq qalanda evi üçün darıxır, siz təsəvvür edin ki, təxminən 10

